# “QSM-7” təsdiq edir

# “QSM-7” confirms

Bakı-2010

Baş məsləhətçi:
**Eldar Mahmudov** – Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri

Məsləhətçilər:
**Şahin Sayılov** – Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi
**Firudin Sadıqov** – Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupunun rəhbəri.

Tərtibçi:
**Eldar Səmədov** – Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupu rəhbərinin müavini

Buraxılışa məsul: – Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu tərəfindən toplanmış materialların əsasında tərtib edilmiş kitabda əksini tapan hadisələr, şahid ifadələrinə əsaslanan faktlardır. Bunlar sadəcə hadisə yox, Ermənistanın Azərbaycana təcavüzü zamanı törədilmiş müharibə cinayətləridir. Həmin cinayətləri eyni zamanda, kitabda oxucuların diqqətinə təqdim edilmiş radio əks-kəşfiyyat məlumatları da təsdiq edir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 9952-8058 6 1

© Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası.

## Ön söz

Ermənistanın Azərbaycana ərazi iddialı hərbi təcavüzü özü ilə bölgəyə miqyası hələ tam müəyyənləşdirilməmiş çoxsaylı problemlər gətirdi. Ən çox əziyyət isə təcavüzə məruz qalmış ərazidə yaşayan dinc əhalinin payına düşdü. Münaqişənin əvvəlində hələ nəyin baş verdiyini dəqiq dərk etməyən insanlar sözün tam mənasında müharibənin qurbanına – şəhidə, məcburi köçkünə, əsirə, girova və itkinə çevrildilər.

Münaqişənin ilk illərində, ağır humanitar problem yarandığı müddətdə insanlar daha çox ermənilərlə olan şəxsi əlaqələrindən, o cümlədən səhra komandirlərinin biri-biri ilə razılığından istifadə edərək onun həllinə nail olmağa çalışırdı. Prosesin bu cür gedişi isə inkişaf edərək müəyyən mənfi halların yaranmasına səbəb olurdu. Təəssüflə qeyd etmək lazımdır ki, həmin dövrdə hər iki tərəfdə bu problemdən yararlanmaq istəyən şəxslər var idi. Müstəqilliyini yenicə əldə etmiş və həmin andan etibarən təcavüzlə üz-üzə qalmış Respublikamız üçün çox çətin olsa da, baş verə biləcək mənfi halların qarşısının alınması zəruri idi. Bu məqsədlə və prosesin bir mərkəzdən idarə

olunması üçün 1993-cü ilin yanvar ayında Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası yaradıldı. Bu həm də Azərbaycan Respublikasısnın 1993-cü ildə qoşulduğu 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarından irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə bağlı tədbirlərin görülməsi üçün vacib idi.

Komissiyanın əsas vəzifəsi ilk növbədə əsir-girov götürülmüşlərin və itkin düşmüşlərin siyahısını tərtib etməkdən ibarət olmuşdur. Bunun əsas səbəbi əsir-girovları müəyyənləşdirib beynəlxalq təşkilatların vasitəçiliyi ilə onların azad edilməsinə nail olmaqdan, itkinlərin axtarışını təşkil etməkdən ibarət idi. Çox çətin proses olmasına baxmayaraq, Dövlət Komissiyası əsir və girov götürüldükdən sonra Beynəlxalq Qızıl Xaç Komitəsinin qeydiyyatına düşmüş şəxslərin böyük bir hissəsinin azad edilməsinə nail olmuşdur. Lakin sonrakı araşdırma prosesində, itkin düşmüş şəxs kimi qeydiyyata alınmış yeddi yüzdən artıq vətəndaşımızın, hərbi əməliyyatların gedişində Ermənistan hərbçiləri tərəfindən əsir-girov götürülməsi və saxlanması faktları müəyyənləşdirilmişdir. Bu faktlar şahid ifadələrinə əsasən təsdiq edilmişdir.

Dövlət Komissiyası toplanmış materiallardan istifadə edərək 2006-cı ildə «Bizi əsirlikdən qurtarın» adlı kitabı azərbaycan və ingilis dillərində nəşr etdirmişdir. Həmin kitabda Azərbaycan ərazilərinin işğalı zamanı Ermənistan hərbçiləri tərəfindən əsir və girov götürülməsi barədə şahid ifadələri olan 753 vətəndaşımız haqqında məlumatlar yerləşdirilmişdir. 2009-cu ildə kitabın DVD versiyası hazırlanmışdır.

Adı çəkilən kitab nəşr edildikdən sonra Dövlət Komissiyasının İşçi qrupu tərəfindən aparılmış araşdırmalar zamanı itkin düşmüş şəxs kimi qeydiyata alınmış iki yüzdən artıq vətəndaşımızın da əsir və girov götürülməsi barədə məlumatlar aşkarlandı. Bu şəxslərin arasında hərbçilərlə yanaşı, yaşayış məntəqələrinin işğalı zamanı öz döğma yurdunu, evini tərk etməkdən imtina edərək orada qalmış dinc insanlar da var. Azərbaycan ərazilərinin işğalı zamanı həmin şəxslərin girov götürülməsi və beynəlxalq təşkilatlardan gizlədilməsi şübhə doğurmur. Lakin Ermənistan Cenevrə Konvensiyalarının ziddinə çıxaraq öz evlərində sağ-salamat qalmış insanların sonrakı taleyi barədə məlumat verməmişdir.

Əlbəttə ki, yaşayış məntəqələrinin işğalı zamanı öz evlərində girov götürülmüş insanlara Ermənistan hərbçiləri tərəfindən hələ də yaşamaq hüququnun verilməsinə inanmaq sadəlövhlük olardı. Çünki aparılan araşdırmalar, eyni zamanda əldə olunmuş təkzib olunmaz faktlar təsdiq edir ki, bir çox hallarda öz evlərində girov götürülmüş insanlar beynəlxalq təşkilatlardan gizlədilmiş və kütləvi halda qətlə yetirilmişdir. Fakta müraciət edək. 1993-cü ilin aprel ayının 1-də Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Kəlbəcər rayonuna genişmiqyaslı hücumu zamanı Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyasından («QSM-7») Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya («Uraqan») bölgədəki bütün səyyar radiostansiyalara çatdırmaq üçün təcili əmr verilmişdir. Əmrdə əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarını, o cümlədən qocaları, qadınları və uşaqları təcili məhv edib basdır-

maq tələb olunurdu. Tələsikliyə səbəb azərbaycanlılar barəsində törətdikləri vəhşiliklərin izlərinin həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən, xüsusən də jurnalistlərdən gizlətmək olmuşdur. Erməni hərbi birləşmələri komandirlərinin efirdəki bu radiodanışığının mətni Azərbaycan Respublkasının Milli Təhlükəsizlik Nazirliyinn radioəkskəşfiyyat xidməti tərəfindən 1993-cü ilin aprel ayının 6-7-də lentə alınmışdır. Bu radiodanışığın mətnini də kitabda oxucuların diqqətinə çatdırmağı məqsədəuyğun hesab etdik. Radiodanışığın audio versiyası ilə Dövlət Komissiyasının www.human.az adlı rəsmi saytında tanış olmaq olar.

Beləliklə, araşdırma prosesində əlavə faktların ortaya çıxması yeni kitabın nəşr olunması zərurətini yaratdı. Əsir-girov götürülməsi barədə məlumatlar əldə olunmuş iki yüzdən artıq şəxsdən 125-ı barədə məlumatlar seçilərək sistemləşdirildi və oxucuların diqqətinə təqdim edildi. Əlbəttə ki, Dövlət Komissiyasının İşçi qrupu araşdırmalarını davam etdirir və yeni məlumatların əldə olunması ehtimalı böyükdür. Gələcəkdə həmin məlumatlar da kitab şəklində nəşr ediləcək.

**Firudin Sadıqov**

*Əsir və itkin düşmüş, girov*
*götürülmüş vətəndaşlarla*
*əlaqədar Dövlət Komissiyası*
*İşçi qrupunun rəhbəri.*

## Kəlbəcər rayonunun işğalı zamanı MTN Radio Əks-kəşfiyyat Xidməti tərəfindən əldə edilmiş radiodanışıqlar

1993-cü ilin aprel ayının 1-dən erməni hərbi birləşmələri tərəfindən Kəlbəcər rayonuna genişmiqyaslı hücum başlanmışdır. Bu əməliyyat zamanı 6721 khs tezlikdə işləyən yeni radioşəbəkədən istifadə olunmuş, əməliyyatın koordinasiyası və ümumi rəhbərlik həyata keçirilmişdir. Kəlbəcərin işğalı əməliyyatında fəaliyyət göstərən radioşəbəkənin tərkibinə aşağıdakı radiostansiyalar daxil olmuşdur:

**«QSM-7»** - Ermənistanın Vardenis rayonunda yerləşmiş qərargah radiostansiyası. Əməliyyata ümumi rəhbərliyi həyata keçirmiş və Yerevanla mütəmadi əlaqə saxlamışdır;

**«Uraqan»(U)** - döyüş bölgəsində yerləşən baş radiostansiyadır. Kəlbəcərin işğalından sonra orada yerləşmişdir;

**«17»** - bütün komandaları rus dilindən erməni dilinə və əksinə tərcümə edərək ötürən rabitə rəisinin radiostansiyası;

**«Uraqan-1» (U-1)** - əməliyyatda iştirak edən səyyar radiostansiya;

**«Kaskad-22»** - əməliyyatda iştirak edən səyyar radiostansiya;

**«Manuşak-10»** - əməliyyatda iştirak edən səyyar radiostansiya;

**«Leo - 13» (L-13)** - əməliyyatda iştirak edən səyyar radiostansiya

«Martunik», «Qarik-02», «Qurqen», «Vartan», «Saşa-22», «Serqey», «Artaş» - erməni və rus dillərini yaxşı bilən yüksək vəzifəli hərbi mütəxəssislərin çağırış siqnallarıdır.

1993-cü ilin aprelin 6-7-də əldə olunmuş radio-əks-kəşfiyyat materiallarından göründüyü kimi, Vardenis rayonundakı qərargah radiostansiyasından («QSM-7») Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya («Uraqan») bölgədəki bütün səyyar radiostansiyalara çatdırmaq üçün təcili əmr verilir ki, götürülmüş əsir və girovları, o cümlədən qocaları, qadınları və uşaqları tələsik məhv edib basdırsınlar. Tələsikliyə səbəb azərbaycanlılar barəsində törətdikləri vəhşiliklərin izlərinin həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən, o cümlədən jurnalistlərdən gizlətmək olmuşdur.

Radioşəbəkədə aşağıdakı şərti işarələrdən istifadə olunmuşdur:

| | |
|---|---|
| **«Dub»** | - ölənlər |
| **«Osina»** | - yaralılar |
| **«Xariton»** | - azərbaycanlılar |
| **«Zelyonıe»** | - Azərbaycan Ordusunun əsgərləri |
| **«Nojka-1»** | - kişilər |
| **«Nojka-2»** | - qadınlar |
| **«Nojka-3»** | - uşaqlar |
| **«Nojka-4»** | - qocalar |
| **«İsparit»** | - məhv etmək |
| **«Bolşaya derevnya»** | - Kəlbəcər |
| **«Malenkie sosedi» (lyudi)** | - Qarabağ erməniləri |
| **«Rıbı»** | - zirehli texnika |
| **«Semeçki»** | - patronlar |
| **«Qolub»** | - hava nəqliyyatı (vertolyot, təyyarə) |

# Azərbaycan Respublikası Kəlbəcər rayonunun işğalından sonra, 6-7 aprel 1993-cü il tarixdə Ermənistan hərbçiləri arasında aparılan radiodanışıqların məzmunu

***06.04.1993-cü il Saat: 13.00***

**«Uraqan»** - «Uraqan-1» eşidir.

**«QSM-7»** - Sizin tərəfdən bura adam gəlmişdir. O hər şeyi sizə izah edib. Siz nə edəcəyinizi bilirsiniz?

**«Uraqan»** - Başa düşmədim, təkrar edin.

**«QSM-7»** - Deyirəm, siz tərəfdən bir nəfər bizim tərəfə gəlmişdir. O, nə edəcəyinizi və hansı üsullardan istifadə olunacağını sizə izah edib. Qəbul etmisiniz?

**«Uraqan»** - Məlumatım yoxdur.

**«QSM-7»** - «Kiçik xalq», «Kiçik xalq». Qəbul etmisən?

**«Uraqan»** - «Kiçik» nə?

**«QSM-7»** - «Kiçik xalq»

**«Uraqan»** - Bəli, bəli.

**«QSM-7»** - Sən qəbul etmisən? Məlumatın var?

**«Uraqan»** - Xeyr, qəbul etməmişəm.

**«QSM-7»** - Sən yaxınlıqdakı «Uraqan»lardan soruş. Onlar deyərlər, nə qədər «Dub» (həlak olmuş) və «Osina» (yaralı) var. Onları təcili surətdə məhv etmək («isparit») lazımdır. Qəbul etdin?

**«Uraqan»** - Nə?

**«QSM-7»** - «Xaritonları» (azərbaycanlıları), «dub»ları, «osina»ları tam məhv edin! Sən onlara çatdır. Onlar bilir. Qəbul etdin?

**«Uraqan»** - Oldu.

**«QSM-7»** - Təcili və mütləq yerinə yetirin! Hökmən! Əmri qəbul etdin?

**«Uraqan»** - Qəbul etdim, qəbul etdim.

**«QSM-7»** - Sən əmri onlara çatdır, onlar hər şeyi bilir. Kiminlə əlaqə yaratmaq imkanın varsa, onlara izah et. Qapalı mətnlə danış. Hamı əmri təcili yerinə yetirsin!

**«Uraqan»** - Burada iki «osina» var. Onları göndərmək üçün «Qolub» lazımdır.

**«QSM»** - Onlar bizim yaralılardır, sən əksinə başa düşmüsən. Yadında saxla, əksinə «Osinalar» və «Dublar». Başa düşdün?

**«Uraqan»** - Başa düşdüm.

**«QSM»** - Təcili olaraq «böyüklərə» və «kiçiklərə», hər kimə lazımdır, xəbər ver, ərazidə dediklərimdən heç kim görünməməlidir!

**«Uraqan»** - Başa düşdüm.

**«QSM»** - «Uraqan -1» sənə dediklərimi bir az örtülü «Manuşak -10»a da çatdır, qoy bütün bunları tezləşdirsinlər və imkan olan kimi qonşuluqdakı məntəqələrə xəbər versinlər.

**«Uraqan-1»** - Bizdə onların «osina» ları var. Gənclərdir. «Qolub» gözləyirik.

**«QSM»** - Onların hamısını on metr aşağı-xəndəyə və deyilən vəziyyətə. Anladın?

**«Uraqan-1»** - Təkrar edin.

**«QSM»** - Təcili. Hamısını, kimdə nə və nə qədər varsa!

**«Uraqan-1»** - Başa düşdüm.

**«Uraqan-1»** - Mən, Qneləm!

«**L»** - Nə çatdırmaq lazımdır?

**«Uraqan-1»** - Siz son xəbərləri eşitmisinizmi?

**«L»** - Nə barədə? Müxbirlər barəsində?

**«Uraqan-1»** - Oldu. Əgər eşitməmisinizsə, mən indi «QSM»lə danışıb, öyrənərəm.

**«L»** - Yaxşı. Xəttdə qalın, heç yerə itməyin.

**«Uraqan-1»** - Mən həmişə əlaqədəyəm.

**«L»** - O sizi axtarırdı, soruşurdu ki, siz onu nə üçün axtarmısınız? Sizi tapmadı, Əsəbləşib getdi.

**«Uraqan-1» -** Başa düşdüm. Sən indi bilirsən, biz onu nə üçün axtarırdıq, ona çatdır.

**«L»** - Bilirəm, ancaq o hələ «yuxarılarla» məşğuldur.

**«Uraqan-1**» - Anladım. Ancaq mənə şəxsən özü tapşırıq verməsə, heç kimə heç nə çatdırmayacam.

**«L»** - O gəlib deyəcək. Ancaq bilmək istəyirsənsə, qanunla sən çatdırmalısan, «Martunik» yox. Onun rabitə cihazını öz əlinə almağa ixtiyarı yoxdur.

**«Uraqan-1»** - İxtiyarı var. Hələ işçilər də məndən kabel istəyirlər. Mən nə edim?

**«L»** - «Martunik» gəlib səninlə danışacaq. Ancaq qanunla onun ixtiyarı yoxdur.

**«Uraqan-1»** - Burada qanunlar işləmir.

**«L»** - Qanun yoxdur, ona görə ki, burada biabırçılıqdırdır. Hər şeyi telefona çeviriblər.

**«M»** - «Martunik» eşidir.

**«Uraqan-1»** - Xahiş edirəm, əmrinizi şəxsən təkrar edin.

| | |
|---|---|
| **«M»** | - Danışan kimdir? |
| **«Uraqan -1»** | - «Uraqan-1». |
| **«M»** | - Ağzını yum, «Uraqan-1», otur yerində və sənə nə deyirlər, yerinə yetir. Oyun çıxarma. Məni başa düşdün? |
| **«Uraqan-1»** | - Mən sizin əmri şəxsən eşitmək istəyirəm. |
| **«M»** | - Mən təkrar edirəm. Səni görən kimi, həmin an yerindəcə güllələyəcəm. Özünü axmaq yerinə qoyma. Əmri qəbul etdin – yerinə yetir! Baş «Uraqan»a çatdırın. |
| **«Uraqan-1»** | - Baş «Uraqan» burada yoxdur. |
| **«M»** | - Sənə çatdırılıb, yerinə yetir, ya da baş «Uraqan»a çatdır. Qalan işlərə qaışma. Sən müdaxilə etmək üçün hələ çox kiçiksən? |
| **«Uraqan -1»** | - Başa düşdüm. |
| **«M»** | - Qneli çağır. |
| **«Q»** | - Qnel eşidir! |
| **«M»** | - İndi orada mənimlə danışana de ki, axmaqlıq et- məsin, biz nə deyirik, onu da çatdırsın. Bu sənə və səndən böyüyə yuxarıdan verilən göstərişdır. O, nə istəyir, mən onun yerinə rabitəçi işləməliyəm? Mən onu güllələyəcəm, onun kimi əslafları da. |
| **«Q»** | - Başa düşdüm. Soruşmaq istəyirəm, siz tərəfdən gələn «qonaqlar» nə ilə geri qayıtmalıdırlar? |
| **«M»** | - Nə ilə gəlmişdilərsə. |
| **«02»** | - «02», «QSM»-ə. |
| **«M»** | - «Manuşak-10» - «QSM»-ə |

**«Saşa -22»** - «Saşa-22» - «QSM-7».

**«L»** - «Leo 13» - «QSM-7»

**«QSM»** - Haradasan? Eşidirsən, ancaq cavab vermək istəmirsən? Deməli, Tiko səni başa salacaq. Qoy, sxemin yanına gəlsin. Qəbul etdin?

**«L»** - Qəbul etdim.

**«QSM»** - Sən axırıncı «dub»u tanıdın. O, kim idi?

«**Uraqan-1»** - Yox.

**«QSM»** - Sən bilirsən, axırıncı «dub» harada idi? Ebonu cağır! Sən bilirsən, «dub» harada idi?

**«Uraqan-1»** - Bəli, bilirəm.

**«QSM»** - Həmin yerdə xeyli «dub» və «osina» var. Sən onlara mütləq o yer üçün, konkret o yer üçün. Qəbul etdin?

**«Uraqan -1»** - Qəbul etdin?

**«QSM»** - Qəbul etdim.

**«Uraqan-1»** - Cavabınızı gözləyirəm. Təmiz və qaydasında.

***Tarix: 06: 04:93 Saat: 14:00 Dalğa: 6721***

**«Uraqan-1»** - Yerimdəyəm. (Martunik)

**«L»** - Danışan «Leo-13»-dür. Gedin, onu çağırın. Qoy, o, mənə şəxsən desin, bu barədə əmr versin.

**«Uraqan-1»** - «Leo-13»!

**«L»** - Eşidirəm.

**«Uraqan-1»** - Artaş, sənsən?

**«L»** - O, yoxdur.

**«Uraqan-1»** - Haradadır?

**«L»** - O, buradadır, yaxınlıqdadır. Tezliklə gələr. Kimdir soruşan?

**«Q»** - Bu gün olacaq?

**«M»** - Gözləyirik, oradan-baş şəhərdən qayıtsın ki, sonra onu o quldurların dalınca göndərək. Siz bütün komandirlərə çatdırın ki, onlar bilsinlər və əmri olduğu kimi yerinə yetirsinlər.

«**Uraqan-1**» - «Manuşak -10»-u çağırıram, «QSM-7» ilə əlaqə yaradın.

**«QSM-7»** - Mən mühüm məlumat vermişəm. Siz nə üçün xəttdə deyildiniz?

**«Uraqan-1»** - Mən həmişə xəttdə olmuşam.

**«QSM-7»** - Mənim dediklərimi eşitmisiniz?

**«Uraqan-1»** - Xahiş edirəm, mənə hamısını təkrar edin.

**«QSM-7»** - Diqqətlə dinlə. Sən «kiçik adam» məsələsindən xəbərdarsan?

**«Uraqan-1»** - «Kiçik adam»?

**«QSM-7»** - Bəli, «kiçik adam». Səndən qabaq orada oturan adama, mən mənasını başa salmışam. İndi ardı na qulaq as.

**«Uraqan-1»** - O, bilmir, mən soruşdum.

**«QSM-7»** - «Kiçik adam», «kiçik xalq». Qəbul etdin?

**«Uraqan-1»** - Qəbul etdim.

**«QSM-7»** - «Zelyonıy» (Azərbaycan əsgəri), «Osina», «Dub» - hamısını iki metr aşağı - dərinliyə və yerlə bərabər. Qəbul etdin?

**«Uraqan-7»** - Qəbul etdim. Başa düşdüm.

**«QSM-7»** - Hər yerdə hamıya xəbər ver. Eboda olan «dub»-u tanıyırsan? Onun yerini de.

**«Uraqan-1»** - Yox, bilmirəm.

**«QSM-7»** - Ebo nə vaxtsa demişdir: «Mən buradayam. Bura mənim yerimdir». Yadındadır?

**«Uraqan-1»** - Bəli.

**«QSM-7»** - Başlıcası oradadır.

**«Uraqan-1»** - Başa düşdüm. Məndə «zelyonıy» -«osina» var.

**«QSM-7»** - Nə qədər varsa, hamısı onlara aiddir. Qəbul etdin?

**«Uraqan-1»** - Qəbul etdim.

**«QSM-7»** - Hər şey aydındır?

**«Uraqan-1»** - Aydındır. Dedikləriniz «Nojka-3»-lərə (uşaqlara) də aiddir?

**«QSM-7»** - Əgər «Osina» və «Dub» varsa, deməli, eyni qaydada.

***Tarix: 07: 04: 1993 Saat 08: 20 Dalğa 6721***

**«QSM-7»** - Dünən sizin Artaşa hər şey deyilib. O hər şeyi başa düşdü. Artaş oradadır?

**«Uraqan-1»** - Yox. Hansı Artaş? «Leo-13»-dən, yoxsa «Qarik-02»-dən?

**«QSM-7»** - «Uraqan-1»-dən olan. O, 88-ci ilin 7 dekabr sa- kinlərindəndir.

**«Uraqan-1»** - Bildim. O, yoxdur. O, «Uraqan»nın yanına gedib.

**«QSM-7»** - Bəs, o sizi məsələdən agah etməyib? Əgər onu soruşsalar, necə olacaq?

**«Uraqan-1»** - O, nəsə deyirdi, ancaq həqiqətə o qədər də uyğun olmadığı üçün mən heç nə anlamadım.

| | |
|---|---|
| | Xahiş edirəm, əmri təkrar edin ki, mən başqalarına dəqiq çatdırım. |
| **«QSM-7»** | - Sən bilirsən «dub», «osina»- onlarla nə etmək lazımdır? Bəli, ya da xeyr. |
| **«Uraqan-1»** | - Bəli, bilirəm. |
| **«QSM-7»** | - Siz, «QSM-7»-ni, ümumiyyətlə tanımırsınız. Başa düşdün? |
| **«Uraqan-1»** | - Başa düşmədim. |
| **«QSM-7»** | - «QSM-7» və onun yerləşdiryi ərazini tanımırsınız. Başa düşdün? O tərəfdən bizi tanımırlar. |
| **«Uraqan-1»** | - Başa düşdüm. |
| **«QSM-7»** | - Siz-«kiçik adamlar», bizi tanımırsınız. Başa düşdün? |
| **«Uraqan -1»** | - Siz bununla nə demək istəyirsiniz? «kiçik adamlar», ərazi? Aydın danış. Əmri çatdırın. |
| **«QSM-7»** | - Mən açıq danışa bilmirəm. Bizim bütün danışıqları lentə yazırlar. Ona görə, açıq danışa bilmirəm. Sən məni anlamalısan. «Kiçik adamlar»ı tanımırlar, ancaq bizi tanıyırlar. Başa düşdün? |
| **«Uraqan-1»** | - Başa düşdüm. Məlumatı deyə bilərsən? |
| **«QSM-7»** | - Ciddi bir şey yoxdur. Artıq sən bilirsən «dub» və «osina»larla nə etmək lazımdır. Ərazidə hər şey təmiz və qaydasında olmalıdır! Sən bizi tanımırsan, bizdə səni. Qəbul etdin? |
| **«Uraqan-1»** | - Qəbul olundu. Başa düşdüm. |
| **«QSM-7»** | - Hər şeyi təfsilatı ilə öyrən. Mən «Martunik»-ə məruzə etməliyəm. |
| **«Uraqan-1»** | - Oldu. |

***Tarix: 07: 04: 1993 Saat: 08:25 Dalğa: 6721***

**«Uraqan-1»** **-** Salam. Qurgen eşidir. Hansı yeniliklər var?

**«QSM-7»** **-** Birincisi, «qonaqlar» siz tərəfə gəlir. Bu gün. Ancaq sərhədə görə… Bizim bu müharibədə iştirak etmədiyimizi görmək istəyən «qonaqlar» gəlir. Hər şey hazırdı, mən onları gözləyirəm. Necə başa düşdünüz? Qəbul.

**«Uraqan-1»** **-** Qəbul etdim. Mən onları qəbul etməyə hazıram. Mənim də «qonaqlarım» gəlir. Sən onları saat necədə gözləyirsən?

**«QSM-7»** **-** Saat 10-da gələcəklər. Onlarla Qriqoriy Qaryeginoviç də cəlir.

**«Uraqan-1»** **-** Başa düşdüm, Q.Qaryeginoviç ən böyüyüdür.

**«QSM-7»** **-** O, mənim yanıma gəlir. Sizin yanınıza isə bizim baş şəhərimizdən ən böyük adamlar gəlir.

«**Uraqan-1»** **-** Qəbul etdim. Yollarda vəziyyət necədir? Martunik işləri qurtarır, ya yox?

**«QSM-7»** **-** Bu gün bütün işlər başa çatacaq, Qurgencan. Yollar açılacaq. Bu yolla ilk karvan sizə gələcək.

**«Uraqan-1»** **-** Başa düşdüm. «Qolub» buraya nə vaxt uçacaq?





**Abbasov İdris Məmməd oğlu -** 1945-ci ildə Kəlbəcər rayonu, Zar kəndində anadan olmuş və orada yaşamışdır. 6-7 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu, Milli kəndinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı girov götürümüşdür.

Həmin dövrdə Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsinin əsgəri olmuş, Kəlbəcər rayonu, Zar kənd sakini, hazırda Mingəçevir şəhərində məskunlaşmış Abbasov Malik İdris oğlu ifadəsində bildirmişdir ki, onun xidmət etdiyi tağım Nizami Məhərrəmovun komandanlığı altında Zəylik sərhəd postunda yerləşmişdir. Rayon ərazisinə güclü hücumun başlandığı barədə məlumat əldə etdikdən sonra onlar Kəlbəcər şəhərinə doğru irəliləmişlər. Bu vaxt o, yolüstü sakini olduğu Zar kəndinə daxil olaraq atası İdris və anası Əminə Abbasovları özü ilə götürsə də babası Məmməd və nənəsi Şura Məmmədovlar onun və digər hərbçi yoldaşlarının təkidinə baxmayaraq, kəndlərini tərk etməmişlər və yaşadıqları evdə qalmışlar. Hərbçilərdən və mülki əhalidən ibarət dəstə qarda və çovğunda, piyada Qaracanlı kəndinə çatmışlar. Həmin kəndin əhalisi kəndi tərk etsə də, Minə və Sona adlı 35-40 yaşlı kimsəsiz bacılar da onlara qoşulub Qaracanlı kəndindən çıxmaqdan imtina etmişlər. 2-3 gün Qaracanlı kəndində qalan dəstə Milli kəndi istiqamətinə hərəkət etmişdir. Milli kəndinə çatanda Ermənistan silahlı birləşmələrinin mühasirəsinə düşən və güclü atəşə məruz qalan dəstə bir neçə hissəyə bölünmüşdür. 20-dən artıq canlı qüvvənin itirilməsinə və əsir götürlməsinə baxmayaraq, Azərbaycan hərbçiləri mühasirəni bir neçə istiqamətdən yararaq mülki əhalinin əsas hissəsini

atəş altından çıxara bilmişlər. Malik Abbasovun atası **İdris Abbasov** özünü pis hiss etldiyi, yaşlı qadın Saçlı İlyasova isə yeriyə bilmədiyi üçün onları Milli kəndindəki evlərdən birində yerləşdirmək məcburiyyətində qalmışlar. Mühasirədən çıxıb qarşıdakı hündür dağa qalxanda artıq Milli kəndinin ermənilər tərəfindən işğal edildiyinin və evlərin talanaraq yandırıldığının şahidi olmuşlar.

**Abbasov Savalan İsmayıl oğlu -** 1909-cu ildə Xocalı şəhərində doğulmuş, orada yaşamışdır. 26 fevral 1992-ci il tarixdə Ermənistan silahlı birləşmələrinin Xocalı şəhərini işğalı zamanı girov götürülmüşdür.


*Abbasov Savalan*

Xocalı şəhərinin sakini, hazırda Bakı şəhəri, Mərdəkan qəsəbəsi, «Günəşli» sanatoriyasında məskunlaşmış - Haqverdiyev Cavanşir Məşdi oğlu ifadəsində bildirmişdir ki, şəhərə başlanmış hücum zamanı o, yaxın qohumları və digər şəhər sakinləri ilə birlikdə öz evlərini tərk edərək Ağdam şəhəri istiqamətinə hərəkət etmişlər. Fevralın 27-də Əsgəran rayonunun Dəhraz kəndi yaxınlığındakı meşədən çıxarkən onlardan bir neçə yüz metr irəlidə gedən Savalan Abbasovu silahlı şəxslər Azərbaycan dilində səsləmişlər. Bu vaxt Savalan Abbasov həmin şəxslərə tərəf getmiş və onlar onu mühasirəyə alaraq yaxalamışlar. Hadisənin şahidi olmuş Cavanşir Haqverdiyev və digərlərini ermənilər görməmiş, onlar gizlənərək hərəkət istiqamətini dəyişmiş və Ağdam rayonunun Gülablı kəndinə gəlib çıxmışlar.



Abdullayev Abdulla



Əlişov Həsən

**Abdullayev Abdulla Qabil oğlu** (1966-cı ildə Bakı şəhərində anadan olmuşdur).

**Əlişov Həsən Sədaqət oğlu** (1969-cu ildə Ağdam rayonunun Qızıllı kəndində anadan olmuşdur).

**Həsənov Xəyal Zeynal oğlu** (1964-cü ildə Ağdam rayonunun Güllücə kəndində anadan olmuşdur).

**Quliyev Heydər Qurban oğlu** (1970-ci ildə Ağdam rayonunun Yusifcanlı kəndində anadan olmuşdur).



Həsənov Xəyal



Quliyev Heydər

**Mirzəyev Məmməd Hüseyn oğlu** (1967-ci ildə Ağdam rayonunun Güllücə kəndində anadan olmuşdur).


Mirzəyev Məmməd

**Rüstəmov Azad Həsənqulu oğlu** (1970-ci ildə Ağdam rayonunun Yusifcanlı kəndində anadan olmuşdur).

Bu şəxslər 17 fevral 1992-ci il tarixdə Xocavənd rayonu, Qaradağlı kəndi Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunarkən itkin düşmüşlər.

Onlar itkin şəxs kimi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının qeydiyyatına Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təqdim etdiyi siyahı əsasında, 1993-cü ildə götürülmüşlər.

Dövlət Komissiyasının İşçi qrupu tərəfindən aparılmış axtarış-araşdırma tədbirləri nəticəsində müəyyənləşdirilmişdir ki, 1992-ci ilin əvvəlində Milli Ordunun 12 döyüşçüsü könüllü olaraq Xocavənd rayonu, Qaradağlı kəndinin müdafiəsinə göndərilmişlər.

Həmin vaxt özünümüdafiə dəstəsinin üzvü olmuş, Qaradağlı kənd sakini, ermənilər tərəfindən girov götürülmüş və sonradan azad olunmuş, hazırda Beyləqan rayonu ərazisində salınmış Yeni Xocavənd qəsəbəsində məskunlaşmış Əliyev Oruc Məhəmməd oğlu Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, onunla birlikdə kəndin müdafiəsində iştirak etmiş, adı çəkilən 6 döyüşçü Ermənistanın çoxsaylı hərbi qüvvəsinin və ağır texnikanın hücumu nəticəsində mühasirəyə alınaraq fevral ayının 17-də əsir götürülmüş və Xankəndi şəhəri istiqamətinə aparılmışlar.


Rüstəmov Azad

Qaradağlı kəndinin girov götürülmüş dinc sakinləri və özünümüdafiə dəstəsi (cəmi 117 nəfər) ayrı-ayrı maşınlara mindirildiyindən Oruc Əliyevin əsir götürülmüş Milli Ordu əsgərlərinin sonrakı taleyindən xəbəri olmamışdır. Lakin girovluqdan azad olunduqdan bir neçə il sonra 12 könüllü döyüşçüdən yalnız birinin, Bayram adlı Qax rayon sakininin əsirlikdən azad olunduğunu eşitmişdir.

Əsirlikdən azad olunmuş, Qax rayonunun Zəyəm kənd sakini - Nadirov Bayram Cahangir oğlunun verdiyi məlumata görə, 1992-ci il fevralın 17-də Ermənistan hərbi birləşmələri tərəfindən Xocavənd rayonunun Qaradağlı kəndi işğal edilən zaman onunla birlikdə əsir götürülmüş döyüş yoldaşları arasında yuxarıda adları göstərilmiş şəxslər də olmuşdur.

B.Nadirov bildirmişdir ki, bu şəxslərdən - Heydər Quliyev, Xəyal Həsənov, Məmməd Mirzəyev və Həsən Əlişov elə həmin gün, Azad Rüstəmov və Abdulla Abdullayev isə bir gecə Xankəndində zirzəmidə onunla birlikdə saxlanıldıqdan sonra naməlum istiqamətə aparılmışlar. Bayram Nadirov həmçinin qeyd etmişdir ki, əsir götürülərkən Heydər Quliyev və Xəyal Həsənov yaralı vəziyyətdə olmuşlar.

Beləliklə, hadisənin şahidləri - Oruc Əliyev və Bayram Nadirovun ifadələri Heydər Quliyev, Xəyal Həsənov, Məmməd Mirzəyev, Həsən Əlişov, Azad Rüstəmov və Abdulla Abdullayevin Ermənistan hərbçiləri tərəfindən işğal olunmuş Xocavənd rayonu ərazisində əsir götürülməsi və sonradan naməlum istiqamətə aparılaraq gizlədilməsi faktını təsdiq edir.



Abdullayev Rəfail

**Abdullayev Rəfail Yaşar oğlu** - 1963-cü ildə Gürcüstan Respublikasının Rustavi şəhərində anadan olmuş, 01.11.1993-cü il tarixdə səfərbərliklə əlaqədar Gəncə şəhəri, Kəpəz RHK tərəfindən orduya çağrılmış və 13.04.1994-cü il tarixdə Ağdam rayonunun Paprəvənd kəndi uğrunda gedən döyüşlər zamanı itkin düşmüşdür.

Atası - Abdullayev Yaşar Əhməd oğlu Dövlət Komissiyasına verdiyi ifadəsində, Gündüz adlı döyüş yoldaşı və komandiri, mayor Nəsirova istinadən, 1994-cü il aprelin 13-də Ağdam rayonu ərazisində olmuş döyüşlər zamanı oğlunun Ermənistan hərbçiləri tərəfindən yaralı vəziyyətdə əsir aparıldığını bildirmişdir.

Döyüş yodaşı - Gündüz Əliyev ifadəsində bildirmişdir ki, 1994-cü il aprelin ortalarında Paprəvənd kəndi yaxınlığında, 3-cü sovxoz deyilən ərazidə Ermənistan silahlı birləşmələri kanalın üst tərəfindən qəflətən hücum etmiş, düşmənin qeyri-bərabər canlı qüvvəsi ilə döyüşdə itkilər verən «N» saylı hərbi hissənin 2-ci taborunun əsgərləri geri çəkilmək məcburiyətində qalmışdır. Bu zaman o, Rəfail Abdullayev və kəşfiyyat tağımının bir neçə əsgəri ilə birlikdə döyüş gedən ərazidə ağ mişar daşından tikilmiş binanın içərisində olmuşdur. Kiçik çaplı silahlarla 5-10 dəqiqəlik atışmadan sonra ermənilər binanı tankdan atəşə tutmuş və kəşfiyyat tağımının əsgərləri binadan çıxaraq arxa tərəfə, «almalıq» deyilən əraziyə çəkilmişlər. Rəfail Abdullayev və başqa bir əsgər isə onları müdafiə etmək məqsədilə orada qalmışlar. Atəş dayandıqdan sonra o, durbinlə döyüş yerini müşahidə etmiş və erməni hərbçilərinin Rəfaili yaralı vəziyyətdə sürüyüb apardığını görmüşdür.

G.Əliyev həmiçinin bildirmişdir ki, 1994-cü il aprelin 26-da gedən döyüşdə yaralandığı üçün hospitala düşmüş və qısa-müddətli müalicə almaq məcburiyyətində qalmışdır. Hərbi hissəyə qayıtdıqdan sonra həmin ilin may ayının 3-də və yaxud 4-də 2 əsgər yoldaşı ilə birlikdə «torpaq təpə» deyilən neytral ərazidə 3 erməni hərbçisi ilə görüş keçirmiş və son döyüşdə şəhid olmuş 2 azərbaycanlı hərbçinin meyidini almışdır. Həmin görüş zamanı o, Rəfailin də taleyi ilə maraqlanmış, erməni hərbçiləri onun sağ olduğunu, yalnız 7 erməni əsirlə dəyişdirilə biləcəyini, söyləmişlər. Lakin sornadan dəyişdirmə prosesi baş tutmamışdır.

Hadisənin digər şahidi - Səməd Nəsirov isə ifadəsində bildirmişdir ki, 13.04.1994-cü il tarixdəki döyüş zamanı 2-ci taborun kəşfiyyat tağımının əsgərləri - Natiq Nəcəfov və Rəfail Abdullayev Ağdam-Ağdərə rayonları arasındakı sahədə yerləşən ferma binasında mövqe seçərək düşmənə qarşı igidliklə döyüşmüş, sonradan binanı tərk edərək «kiçik təpə» istiqamətinə qaçmışlar. Lakin düşmənin onların arxasınca avtomat və pulemyot silahlardan intensiv atəşi nəticəsində, əsgərlər yaralanmış və yıxılaraq, uzanıqlı vəziyyətdə qalmışlar. Hava qaralanadək döyüş ərazisi təmamilə düşmənin əlinə keçdiyindən, yaralı əsgərləri oradan çıxarmaq mümkün olmamışdır.

Döyüş yoldaşlarının şahid ifadələri Abdullayev Rəfail Yaşar oğlunun Ermənistan hərbçiləri tərəfindən yaralı vəziyyət-də əsir götürülərək beynəlxalq təşkilatlardan gizlədilməsini təsdiq edir.

**Adıgözəlova Növrəstə Bayrış qızı -** 1903-cü ildə Zəngilan rayonu, Rəvənd kəndində doğulmuşdur. 1993-cü ildə Zəngilan rayonunun işğalı zamanı itkin düşmüşdür.

Oğlu – hazırda Bakı Dövlət Memarlıq və İnşaat Univer-



sitetinin yataqxanasında məskunlaşmış Ələkbərov Dünyadur Mikayıl oğlu ifadəsində bildirmişdir ki, 1993-cü il oktyabrın 27-də Ermənistan Respublikası silahlı qüvvələri Zəngilan rayonunu işğal edərkən o, ailəsi ilə barəbər ərazini tərk etmiş, anası N.Adıgözəlova isə xəstə olduğu üçün çıxa bilməmiş, sağ-salamat halda evində qalmışdır. Sonradan anasının taleyi barədə heç bir məlumat əldə edilməmişdir.



Ağakişiyev Əhməd

**Ağakişiyev Əhməd Süleyman oğlu** – 1947-ci ildə Azərbaycan Respublikasının Şuşa şəhərində anadan olmuş, 8 may 1992-ci il tarixdə, Şuşa şəhərinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Həmin dövrdə şəxsi təşəbbüsü ilə əsir və girovların dəyişdirilməsində iştirak etmiş Füzuli rayonu, Yağlıvənd kənd sakini Kazımov Əhəd Musa oğlu Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, əvvəllər Şuşa şəhərində, 1992-ci ildən etibarən isə Xocavənd rayonu milis şöbəsində işləmiş Maksim adlı kapitan rütbəli erməni, qarşı tərəfdən əsir-girovların və meyitlərin dəyişdirilməsi ilə məşğul olurmuş. Şuşa şəhərinin işğalından sonra Əhməd Ağakişiyevin qohumları Əhəd Kazımova müraciət edərək onunla bağlı məlumatın əldə edilməsinə köməklik göstərməsini xahiş etmişlər.

Növbəti radioəlaqə zamanı Əhəd Kazımov Əhməd

Ağakişiyevlə maraqlanmış və müsbət nəticə əldə olunmuşdur. Belə ki, Maksim əmanət kassasında işləmiş Əhməd Ağakişiyevi çox yaxşı tanıdığını və onunla yaxın münasibətinin olduğunu bildirmiş, qeyd etmişdir ki, o hazırda sağdır və şəxsən onun özünün nəzarəti altında saxlanılır. Maksim Əhməd Ağakişiyevi Gürcüstana aparacağına və dostluq naminə şəxsən azad edəcəyinə söz vermişdir. Hətta Maksim Əhmədlə birlikdə digər bir azərbaycanlının – Şuşa şəhər sakini, 1935-ci il təvəllüdlü Ələkbərov Ənvər Bəylər oğlunun da saxlandığını bildirmişdir.

Əhəd Kazımovun bildirdiyinə görə, Maksim Əhməd Ağakişiyevi azad edəcəyinə söz verərkən: «kişinin sözü bir olar» - ifadəsini işlətdiyi üçün o, sonradan bu barədə söhbət açmamışdır.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Ambarsumyan Maksim Əmiroviç adlı milis əməkdaşının 1988-ci ilə qədər Şuşa şəhərində yerləşən həbsxanada nəzarətçi vəzifəsində, sonradan Xocavənd rayonu daxili işlər şöbəsində milis sahə inspektoru işlədiyini təsdiq etmişdir.

Beləliklə, aparılan araşdırmalar Ağakişiyev Əhməd Süleyman oğlunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğal olunmuş Şuşa şəhərində əsirlikdə saxlanılmasını və sonrakı taleyi barədə məlumatların gizlədilməsini təsdiq edir.

**Allahverdiyeva Əsli Məhəmməd qızı -** 1910-cu ildə Kəlbəcər rayonunun Dalqılınclı kəndində doğulmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.



*Allahverdiyeva Əsli*

Qızı - hazırda Gəncə şəhəri, Azərbaycan Kənd Təsərrüfatı Akade-

miyasının 3 saylı yataqxanasında məskunlaşmış Cəfərova Zərnişan İman qızı Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, Ermənistan Respublikası silahlı qüvvələrinin hücumu ilə əlaqədar kəndi tərk edən zaman anası: «Mən heç bir yerə getməyəcəyəm, ölsəm də burada öləcəyəm, ermənilər heç vaxt Kəlbəcəri işğal edə bilməz» - deyərək onlarla birlikdə ərazini tərk etməkdən imtina etmiş, yaşadığı evdə qalmışdır. Sonradan həmin kənd işğal olunduğundan Əsli Allahverdiyevanın taleyindən məlumat almaq mümkün olmamışdır.



**Babayeva Mədinə Rəhim qızı -** 1905-ci ildə Kəlbəcər rayonu, Daşbulaq kəndində anadan olmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Həmkəndlisi - hazırda Göygöl rayonu, Balsılı kəndində məskunlaşmış Məmmədov Cəmil Fərhad oğlu bildirmişdir ki, 1993-cü il aprelin 2-dək o, anası Mustafayeva Salatın Ələkbər qızı, həmkəndiləri - Abbasov Musa Bayram oğlu, Abbasova Gülsüm Məhəmməd qızı, **Babayeva Mədinə Rəhim qızı** və Babayeva Saray Kərim qızı ilə birlikdə yaşadıqları Daşbulaq kəndində olmuşdur. Aprelin 2–də Ermənistan hərbçiləri zirehli texnika ilə kəndə hücum etdikləri zaman Cəmil Məmmədov kəndi tərk etmiş, adlarını çəkdiyi şəxslər, o cümlədən, Mədinə Babayeva kənddə qalmışlar.

İşğalçı Ermənistan Respublikasının hakimiyyət orqanları bu şəxslərin sonrakı taleyi barədə heç bir məlumat verməmişdir.



**Babayeva Saray (DK-nın siyahısında adı Səyyad kimi də keçir) Kərim qızı -** 1910-cu ildə Kəlbəcər rayonunun Daşbulaq kəndində anadan olmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Həmkəndlisi-hazırda Göygöl rayonu, Balsılı kəndində məskunlaşmış Məmmədov Cəmil Fərhad oğlu ifadəsində bildirmişdir ki, 1993-cü il aprelin 2-dək o, anası Mustafayeva Salatın Ələkbər qızı, həmkəndiləri - Abbasov Musa Bayram oğlu, Abbasova Gülsüm Məhəmməd qızı, Babayeva Mədinə Rəhim qızı və Babayeva Saray Kərim qızı ilə birlikdə yaşadıqları Daşbulaq kəndində olmuşdur. Aprelin 2–də ermənilər zirehli texnika ilə kəndə hücum etdikləri zaman Cəmil Məmmədov kəndi tərk etmiş, adlarını çəkdiyi şəxslər, o cümlədən, Saray (Səyyad) Babayeva sağ-salamat kənddə qalmışlar.

İşğalçı Ermənistan Respublikasının hakimiyyət orqanları bu şəxslərin sonrakı taleyi barədə heç bir məlumat verməmişdir.



**Bayramov Cavanşir Salah oğlu**

**Bayramova (Salahova) Xurma Əhməd qızı –** Hər ikisi 1912-ci ildə Kəlbəcər rayonu, Sarıdaş kəndində anadan olmuşlar. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşlər.

Övladları - hazırda Göy-göl ray-

onu, Çaykənd kəndində məskunlaşmış Salahov Bəşir Cavanşir oğlu Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, 1993-cü ildə Kəlbəcər rayonu işğal olunan zaman atası Bayramov Cavanşir Salah oğlu və anası Bayramova Xurma Əhməd qızı həmkəndliləri Bayramova Yəmən Hüseyn qızı, Məhərrəmov Qurban Süleyman oğlu, Məhərrəmova Kübra Şahmar qızı, Məmmədov Qələndər Dadaş oğlu ilə birlikdə yaşadıqları kənddə qalmış və itkin düşmüşlər.

Həmkəndliləri - hazırda Gəncə şəhərində, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının 6 saylı yataqxanasında müvəqqəti məskunlaşmış Salahov İntiqam Adıgözəl oğlu və Salahova Cavahir Həsənalı qızı Dövlət Komissiyasına verdikləri ifadədə bildirmişlər ki, 1993-cü il aprel ayının 4-də İntiqamın qardaşı Elşadla bərabər yaşadıqları Sarıdaş kəndini tərk edərək meşələrdə gizlənməyə məcbur olmuşlar. «Qaradırnaq» yaylağında gizlənərək kəndlərin ermənilər tərəfindən talanaraq yandırıldığının, Yanşaq kəndində Salahov Cavanşir və onun arvadı Salahova Xurma Əhməd qızının ermənilər tərəfindən girov götürülməsinin və tanka mindirilərək aparılmasının şahidi olmuşlar.

**Bayramov Qaryağdı Haqverdi oğlu –** 1973-cü ilə Kəlbəcər rayonu, Bəzirxana kəndində doğulmuşdur. 6-7 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu ərazisindəki Meydançay çayı ətrafında gedən döyüşlər zamanı itkin düşmüşdür.


*Bayramov Qaryağdı*

Qeyd olunan döyüşlərdə iştirak etmiş və Ermənistan Respublikası silahlı birləşmələrinin mühasirəsindən sağ çıxmış, Azərbaycan Respublikası

Müdafiə Nazirliyi «N» saylı hərbi hissənin tağım komandiri, hazırda Mingəçevir şəhərində yaşayan Nizami Məhərrəmov ifadəsində sözü gedən döyüşlərdə Ermənistan hərbçiləri tərəfindən əsir aparılmış əsgərlərin arasında Kəlbəcər rayonunun Nadirxanlı kənd sakini, Zəylik sərhəd postunun əsgəri Qaryağdı Bayramovun da olduğunu bildirmişdir. Bu faktı onun döyüş yoldaşı, Kəlbəcər rayonu, Zivel kənd sakini, hazırda Gəncə şəhəri, Gülüstan qəsəbəsində məskunaşmış Bağırov Çingiz Əmralı oğlu da təsdiq etmişdir. Barəsində məlumatlar ermənilər tərəfindən gizlədilmişdir.

**Bayramov Rasim Faiq oğlu -** 1956-cı ildə Azərbaycan Respublikasının Ağstafa rayonu, Dağ Kəsəmənli kəndində anadan olmuşdur. 13.03.1992-ci il tarixdə Qazax rayonunun Xeyrəmli kəndində itkin düşmüşdür.



*Bayramov Rasim*

Atası - Ağstafa rayonunun Dağ Kəsəmən kəndində yaşayan Bayramov Faiq Məhəmməd oğlu izahatında bildirmişdir ki, oğlu 1992-ci il mart ayının 13-də Qazax rayonunun Xeyrəmli kəndi ərazisində gedən döyüşlər zamanı ayağından yaralanmış və itkin düşmüşdür.

Qazax rayonunun müdafiəsində iştirak etmiş, hazırda Ağstafa rayonunun Dağ Kəsəmən kəndində yaşayan Muradov Alik Fuad oğlu ifadəsində göstərmişdir ki, o, 1992-ci il mart ayının 13-də gedən döyüş zamanı Rasim Bayramovun ayağından yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülərək Piyadaların döyüş maşınına mindirilib aparıldığının şahidi olmuşdur.

Qazax rayonu, Kəmərli kənd sakini, həmin rayonun

İcra hakimiyyəti başçısının kənd üzrə nümayəndəsi işləmiş Məmmədov Ələddin Mahmud oğlu təsdiq edir ki, 1993-1994-cü illərdə yerli əhalinin təhlukəsizliyini təmin etmək məqsədi ilə erməni tərəfi ilə aparılan danışıqlar zamanı Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları Aleksandr Sarumyan və Vladimir Ayrapetyan əsirlikdə saxlanılan azərbaycanlıların arasında R.Məmmədovun da olduğunu təsdiq etmişdir.

26 iyul 1992-ci il tarixdə Tovuz rayonunun Əlibəyli kəndi ərazisində Ermənistan hərbçiləri tərəfindən girov götürülmüş və bu günə qədər azad olunmamış həmin rayonun Əsrik-Cırdaxan kənd sakini, 1970-ci il təvəllüdlü Hüseynova Tamara Saleh qızının qardaşı Akif Hüseynov bacısının azad olunması ilə əlaqədar 1993 və 1994-cü illərdə Tbilisi şəhərində ermənilərlə uzun müddətli danışıqlar aparmışdır. Danışıqlar zamanı Akif Hüseynova Alaverdyan Şamir adlı erməni (ünvanı-Yerevan -74, Nijniy Şenqavit küçəsi, ev-35, mən 22, tel. 48 67 93) tərəfindən əsirlikdə saxlanılan azərbaycanlıların siyahısı təqdim olunmuşdur. Həmin siyahıda Bayramov Rasim Faiq oğlunun da adı keçir.



**Bayramova Yəmən Hüseyn qızı -** 1910-cu ildə Kəlbəcər rayonu, Sarıdağ kəndində doğulmuşdur. 1993–cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Qohumu - hazırda Göygöl rayonu, Çaykənd kəndində məskunlaşmış Salahov Bəşir Cavanşir oğlu Dövlət Komissiyasına verdiyi izahatda

bildirmişdir ki, 1993-cü ildə Kəlbəcər rayonu işğal olunan zaman Bayramova Yəmən Hüseyn qızı həmkəndliləri - Məhərrəmov Qurban Süleyman oğlu, Bayramov Cavanşir Salah oğlu, Bayramova Xurma Əhməd qızı, Məhərrəmova Kübra Şahmar qızı, Məmmədov Qələndər Dadaş oğlu ilə birlikdə yaşadıqları kənddə qalmışdır.

Bu şəxslərin sonrakı taleyi barədə məlumat əldə etmək mümkün olmamışdır.



**Baxışova Afərin Mehdi qızı -** 1903-cü ildə Kəlbəcər rayonu, Qamışlı kəndində anadan olmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Nəvəsi - hazırda Göygöl rayonu, Çaykənd kəndində məskunlaşmış Pənahov Fəqan Əvəz oğlu ifadəsində bildirmişdir ki, 1993-cü il aprel ayının 3-də Kəlbəcər rayonunun işğalı zamanı yaşadıqları kəndi tərk edərkən nənəsi A.Baxışova da onlarla birlikdə olmuş, sonradan qarışıqlıq düşmüş və onu itirmişlər. Kənd işğal olunduğu üçün A.Baxışovanın sonrakı taleyi haqqında heç bir məlumat əldə edilməmişdir.

**Behbudov Əli Durmuşəli oğlu** - 1971-ci ildə Ucar rayonu, Bərşad kəndində anadan olmuşdur. 1992-ci ilin avqust ayında Ucar rayon hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır. Həmin ilin 18-19 sentyabr tarixində Ağdam rayonu ərazisindəki «Fərrux» yüksəkliyi uğrunda gedən döyüşlərdə iştirak etmiş və geri qayıtmamışdır.


Behbudov Əli

Atası - Behbudov Durmuşəli Abdürəhim oğlunun bildirdiyinə görə, adını unutduğu iki döyüş yoldaşı ona söyləmişlər ki, döyüş zamanı Əli Behbudov yaralanmış və həmin şəxslər onu yüksəklikdəki armud ağacının altına qədər gətirmişlər. Lakin onların da vurulacağından ehtiyat etdiyi üçün Əli döyüş yoldaşlarından ərazini təcili tərk etmələrini tələb etmişdir. Bundan sonra həmin ərazi işğal olunmuşdur. Əli Behbudovla eyni hərbi hissədə xidmət keçmiş həmkəndlisi, zabit - Muradov Sahib Əslan oğlu Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, «Fərrux» yüksəkliyi uğrunda gedən döyüşdən geri qayıdan hərbçilərdən Əlini soruşmuş, döyüşçülər onun ayağından yaralandığı üçün geri qayıda bilmədiyini söyləmişlər. Elə həmin an o, hava rabitəsi vasitəsi ilə ermənilərdən Əli barədə məlumat almağa çalışmışdır. Onlardan biri, özünü Xocavənd rayonundan olan Artyom kimi təqdim etmiş hərbçi qardaşının Xankəndi türməsinin rəisi olduğunu bildirmiş və Əli barədə maraqlanacağını söyləmişdir. Bir həftədən sonra Artyom hava rabitəsi ilə əlaqə yaradaraq Əlinin ayağından yaralı vəziyyətdə «Fərrux» yüksəkliyindəki armud ağacının altından əsir götürüldüyünü və Xankəndi şəhərindəki türmədə saxlandığını bildirmişdir. Sonradan Sahib Muradov Artyomla əlaqə yaratmağa cəhd etsə də buna nail ola bilməmişdir. Beləliklə, Əli Behbudovun sonrakı taleyi barədə məlumat almaq mümkün olmamışdır.



**Bəbirova Manya Məmmədəli qızı** – 1948-ci ildə Cəbrayıl rayonu, Daşkəsən kəndində anadan olmuş, 18 avqust 1993-cü il tarixdə Ermənistan silahlı birləşmələrinin Cəbrayıl rayonunu işğalı zamanı yaşadığı Daşkəsən kəndində itkin düşmüşdür.

Hazırda İmişli şəhəri, Əzizbəyov küç., ev 81 ünvanda müvəqqəti məskunlaşmış Qasımov Cahangir Hüseyn oğlu Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, həyat yoldaşı Manya Bəbirova 18 avqust 1993-cü il tarixdə, Ermənistan silahlı birləşmələri tərəfindən yaşadıqları Cəbrayıl rayonu, Daşkəsən kəndi işğal edilərkən evlərində qalmışdır.

23 avqust 1993-cü il tarixdə Ermənistan hərbçiləri tərəfindən girov götürülmüş və həmin ilin noyabr ayında girovluqdan azad olunmuş Şəfiyev Yusif Oruc oğlu, həmçinin 17 avqust 1993-cü il tarixdə girov götürülmüş və 10 may 1996-cı il tarixdə azad edilmiş Verdiyev Camal Soltan oğlu Dövlət Komissiyasına verdiyi ifadələrində bildirmişlər ki, Azərbaycan Respublikasının Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş Hadrut rayonu ərazisində saxlanılarkən onlarla birlikdə bir neçə qadın, o cümlədən Cəbrayıl rayonu, Daşkəsən kənd sakini Manya Bəbirova da saxlanılmışdır. Ermənilərin verdiyi işgəncələrə və qeyri-insani saxlanma şəraitinə görə ruhi xəstə vəziyyətinə düşmüş Manya Bəbirovanı və digər iki qadını Vova adlı erməni nəzarətçi guya azad etmək adı ilə bir müddətdən sonra oradan aparmışdır.

Qeyd olunanlara baxmayaraq, Manya Bəbirovanın sonrakı taleyi barədə məlumatlar Ermənistan hakimiyyət orqanları tərəfindən gizlədilmişdir.



**Bədişov Ali Rəis oğlu -** 1968-ci ildə Özbəkistan Ruspublikasında anadan olmuşdur. Milliyyətcə Ahıska (Mehseti) türküdür. 1989-cu ildə Özbəkistan Respublikasından qaçqın düşmüş və Azərbaycan Respublikasının Xocalı şəhərinə gələrək orada məskunlaşmışdır. 26 fevral 1992-ci il tarixdə Xocalı şəhərinin Ermənistan silahlı birləşmələri və Rus Ordusunun 366-cı alayı tərəfindən işğalı zamanı itkin düşmüşdür.

İtkinin bacısı - hazırda Dəvəçi rayonu, Udulu kəndində məskunlaşmış Binəliyeva Rəna Rəis qızı ifadəsində bildirmişdir ki, qardaşı Xocalının işğalı günü şəhərin müdafiəsində dayanmış, gülləsi qurtardığından meşəyə tərəf çəkilərkən Binəliyev Əlişir Güləli oğlu (girovluqdan azad olunmuşdur) və İlyasov Əhmədlə (ermənilər tərəfindən əsir götürülmüş şəxs kimi Dövlət Komissiyasının qeydiyyatından keçir) birlikdə girov götürülmüşdür.

Keçmiş girov - hazırda Sabirabad rayonu, Əhmədabad kəndində məskunlaşmış Muradova Səlimə Mərdəli qızı ifadəsində bildirmişdir ki, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə onlar qonşuları Binəliyevlərin evinin zirzəmisində olmuşlar. Erməni hərbçiləri zirzəmidə olan 70 nəfərlə birlikdə Bədişov Alini də girov götürmüş, onu Cabbar və Əlişirlə birlikdə naməlum istiqamətə aparmışlar.

Faktı təsdiq edən keçmiş girov, hazırda Dəvəçi rayonu, Udulu kəndində məskunlaşan Binəliev Bəxtiyar Güləli oğlu ifadəsində bildirmişdir: «Qohumum Bədişov Ali Rəis oğlu Xocalı faciəsi zamanı ermənilər tərəfindən girov götürülmüşdür. Mənim yoldaşım Binəliyeva Firuzə Fərdi qızı, Xocalı

sakinlərindən Zabilə və Sənəm adlı (soyadlarını qeyd etmir) qadınlar da şahiddirlər».

Keçmiş girov – hazırda Dəvəci rayonu, Udulu kəndində məskunlaşmış Binəliyev Güləli Binəli oğlu və Binəliyeva Firuzə Fərdi qızı A.Bədişovun girov götürülməsi faktını təsdiq etmişlər. B.Firuzə əlavə olaraq A.Bədişovun digər girovlarla birlikdə Dəhraz kəndinə aparıldığını bildirmişdir.

A.Bədişovun və daha beş nəfər Ahıska türkünün erməni girovluğunda saxlanılması ilə bağlı Beynəlxalq Amnistiya təşkilatının nümayəndəliyinə müraciət edilmiş və fakt Ann Burlinin imzası ilə bu təşkilat tərəfindən 12 avqust 1993-cü il tarixdə Dövlət Komissiyasına göndərilmiş məktubla təsdiq edilmişdir.

Xocalı sakini Abbasov Mərkəz Salman oğlu isə ifadəsinə bildirmişdir ki, Dəhraz kəndində ermənilər Ali Bədişova 5 nəfərlə birlikdə əvvəl ağır işgəncə vermiş, sonra güllələmişlər.



*Cabbarov Akif*

**Cabbarov Akif İsmayıl oğlu** - 1960-cı ildə Zəngilan rayonunun Qaradərə kəndində doğulmuş, 19 yanvar 1994-cü il tarixdə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndinin müdafiəsi zamanı itkin düşmüşdür.

Həyat yoldaşı - Cabbarova Nailə Əhməd qızı 27.09.1994-cü il tarixdə verdiyi ifadəsində bildirmişdir ki, söhbət zamanı əsirlikdən azad edilmiş Rəcəbov Nazim (Əsirlikdən azad olunmuş Sumqayıt şəhər sakini, 1959-cu il təvəllüdlü Rəcəbov Nazim Rza oğlu. Hazırda ağır ruhi xəstə olduğu üçün ifadəsini almaq mümkün olmamışdır) ona Xankəndində saxlanılarkən A.Cabbarovu gördüyünü, sonradan Şuşaya aparıldığını söyləmişdir.

10.06.1999-cu il tarixdə verdiyi ifadəsində isə N.Cabbarova göstərmişdir ki, 1994-cü ilin axırlarında mülki geyimli, danışıqlarından milliyyətcə ləzgi olduğu hiss olunan 3 şəxs («Hüriyyət» qəzetinin 1999-cu il 9 fevral tarixli sayında gedən müsahibəsində həmin adamlardan birinin adının Əli olduğunu qeyd edir) gələrək Akifin sağ-salamat olduğunu, qaytarılması üçün ermənilərin 15 milyon manat pul istədiklərini bildirmişlər. Həmin adamlar pulu almış, lakin azadolunma baş tutmadığından bu barədə danışsalar uşaqlarını oğurlayacaqları barədə hədə-qorxu gəlmişlər.

1993-cü ildə Ermənistan hərbçiləri tərəfindən girov götürülmüş və sonradan azad edilmiş Füzuli rayonu, Qaraxanbəyli kənd sakini Əliyev Qəhrəman Həsən oğlu ifadəsində bildirmişdir ki, Şuşa şəhərində saxlanıldığı zaman (dəqiq tarixini qeyd etməmişdir) bir nəfər ona gizlincə bir parça kağız vermiş və kağızı Cəbrayıl rayon sakinlərinə çatdırmağı xahiş etmişdir. Kağızda Cəbrayıl raoynunun Mərcanlı kəndindən olan Bayramov Şakir Balakişi oğlunun və Zəngilan rayonu, Qaradərə kənd sakini Akif Cabbarovun adı olmuşdur.

Döyüş yoldaşı - İbrahimov Kəmaləddin İbabəddin oğlu ifadəsində qeyd etmişdir ki, 19 yanvar 1994-cü il tarixdə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndinin müdafiəsi zamanı o, qardaşı Cəmaləddinın təkidi ilə onlarla birlikdə döyüşə getməmiş, arxa cinahda qalmışdır. Komandanlıqdan tapşırıq alan Cəmaləddin İbrahimov və 20 nəfər döyüş yoldaşı bir tank və «PDM» tipli zirehli maşına minərək Yuxarı Seyidəhmədli kəndinə tərəf irəliləmişlər. Yolda tank minaya toxunmuş, partlayış nəticəsində əsgərlər ətrafa səpələnərək, müxtəlif dərəcəli xəsarətlər almışlar. Partlayış vaxtı tankın üstündə onun qardaşı Cəmaləddindən başqa, döyüş yoldaşları- **Akif Cabbarov**, Mübariz Sadıqov, Elxan Nəbiyev, Əyyar Əliyev də olmuşdur. Yanvarın 19-da axşamüstü, saat 18 radələrində

tankın minaya düşməsi xəbəri alınmış və K.İbrahimov dərhal əsgər yoldaşları ilə birlikdə yaralıların xilas edilməsi işinə başlamış, oradan 10-12 yaralı əsgər çıxara bilmişlər. Döyüş yerində onlar tankın yandığını görmüş, lakin havanın qaralması səbəbindən ona yaxınlaşa bilməmişlər. Səhəri günü onlar erməni hərbçilərinin tankı apardıqlarını müşahidə etmişlər. Növbəti gün döyüş yerinə kəşfiyyat dəstəsi göndərilsə də, itkin əsgərlərin sonrakı taleyi barədə məlumat əldə etmək mümkün olmamışdır.

Yuxarıda qeyd olunanlar Cabbarov Akif İsmayıl oğlunun Ermənistan hərbçiləri tərəfindən əsir götürlməsini və beynəlxalq təşkilatlardan gizlədilməsini təsdiq edir.



**Dünyamalıyev Əfqan Hacıbaba oğlu -** 1973-cü ildə Kəlbəcər rayonunun Vəng (Hacıdünyamalılar) kəndində anadan olmuşdur. 6-7 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu ərazisindəki Meydançay çayı ətrafında gedən döyüşlər zamanı itkin düşmüşdür.

İtkinin döyüş yoldaşı, düşmən mühasirəsindən sağ çıxmış, hazırda Gəncə şəhərində məskunlaşmış - Bağırov Çingiz Əmralı oğlu ifadəsində bildirmişdir ki, Əfqan Dünyamalıyev bir neçə döyüşçü ilə birlikdə sağ-salamat mühasirədə qalmışdır. Ərazi işğal olunduqdan sonra mühasirədən çıgöygöl ermənilər tərəfindən Əfqan Dünyamalıyevin və əsir götürülmüş bir neçə digər şəxsin tanka və hərbi yük maşınına mindirilərək aparıldıgının şahidi olmuşlar. Bu faktı eyni zamanda, qeyd olunan döyüşlərdə iştirak etmiş və Ermənistan Respublikası silahlı

birləşmələrinin mühasirəsindən sağ çıxmış, Azərbaycan Respublikası Müdafiə Nazirliyi «N» saylı hərbi hissəsinin tağım komandiri, hazırda Mingəçevir şəhərində yaşayan Nizami Məhərrəmov da ifadəsində təsdiq etmişdir.


*Ələkbərov Kamil*

**Ələkbərov Kamil Kür oğlu** - 1971-ci ildə Şuşa rayonu, Turşsu kəndində Anadan olmuşdur. 8 may 1992-ci il tarixdə Şuşa şəhərindəki «Kirs» yüksəkliyi uğrunda gedən döyüşlər zamanı 7 nəfər döyüşçü ilə birlikdə mühasirəyə alınraq əsir götürülmüşdür.

Hadisənin şahidləri – Şuşa rayonu, Turşsu kənd sakinləri - hazırda Bakı şəhərində məskunlaşmış Rüstəmov Valeh Zubara oğlu və Bərdə rayonu, «Ərəb 1» çadır şəhərciyində məskunlaşmış Əsədov Ərəstun Əlövsət oğlu ifadələrində bildirmişlər ki, Kamil Ələkbərovun da daxil olduğu 7 nəfərdən ibarət Şuşa rayon polis şöbəsinin əməkdaşları mühasirəyə Alınarkən ermənilərin onlara tam yaxınlaşdığının şahidi olmuşlar. Həmin şəxslər bu zaman Kamilin ayağından yaralı olduğunu da bildirmişlər.

Kamil Ələkbərovun qardaşı - hazırda Bərdə rayonu, Şirvanlı kəndində müvəqqəti məskunlaşmış Ələkbərov Aqil Kür oğlu ifadəsində bildirmişdir ki, itkin düşmüş polis əməkdaşlarının yaxın qohumlarının xahişi ilə Ağdam rayonu istiqamətində özünümüdafiə taborunun komandiri olmuş Allahverdi Bağırov və həmin dövrdə öz təşəbbüsü ilə əsir-girovların fərdi qaydada dəyişdirilməsi ilə məşğul olmuş Əhəd Kazımov ermənilərlə danışıqlar aparmış və Şuşa rayon polis şöbəsinin 7 əməkdaşının əsirlikdə saxlanıldığı barədə məlumatlar almışlar.

26 iyul 1992-ci il tarixdə ermənilər tərəfindən girov götürülmüş Tovuz rayonu, Əsrik-Cırdaxan kənd sakini Hüseynova Tamara Saleh qızının qardaşı Akif Hüseynov bacısının azad olunması məqsədilə 6 iyun 1993-cü il tarxidə Gürcüstan Respublikasının Tbilisi şəhərində ermənilərlə apardığı danışıqlar zamanı Alaverdiyan Şamir (Yerevan-74, Nijnıy Şenqavit küç. 2, ev 35 mən. 22. tel: 48-6793) tərəfindən ona təqdim olunmuş Ermənistanda saxlanılan azərbaycanlı əsir-girovların siyahısında Ələkbərov Kamil Kür oğlunun da adı olmuşdur.

**Ələsgərov Balay Qərib oğlu –** 1890-cı ildə,
**Ələsgərova Ramilə Balay qızı -** 1958-ci ildə,
**Ələsgərova (İsmayılova) Saray Eyvaz qızı -** 1920-ci ildə,
**Ələsgərova Nərgiz İbrahim qızı -** 1973-cü ildə,
**Ələsgərova Zabilə Balay qızı –** 1946-cı ildə Ağdərə rayonu, Mehmana kəndində anadan olmuşlar. Ermənilərin təzyiqi nəticəsində 1990–ci ildə ailə evini tərk edərək həmin rayonun Baş Güneytəpə kəndinə köçmüş, burada yaşamışdır. 1992-ci ilin mart ayında Baş Güneytəpə kəndinin işğalı zamanı itkin düşmüşlər.


*Ələsgərova Saray*

Ailənin üzvü - Ələsgərov Bəxtiyar İbrahim oğlu Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, 1992-ci ilin mart ayında Ermənistan Respublikası silahlı birləşmələri məskunlaşdıqları Baş Güneytəpə kəndinə daxil olarkən babası - Ələsgərov Balay Qərib oğlu, nənəsi – Ələsgərova Saray Eyvaz qızı, bacısı Ələsgərova Nərgiz İbrahim qızı, bibiləri - Zabilə və Ramilə

Ələsgərovalar kənddə qalmış və sonrakı taleləri barədə heç bir məlumat əldə edilməmişdir.


Ələsgərova Zabilə

1992-ci ildə Ağdərə rayonu, Baş Güneytəpə kəndində icra nümayəndəsi işləmiş, hazırda Tərtər rayonunda məskunlamış, Həsənov İlyas Ataş oğlu Dövlət Komissiyasına verdiyi ifadədə bildirmişdir ki, Ermənistan hərbçiləri kəndə daxil olan zaman Balay Ələsgərov xəstə, yaralı və əlillərlə bərabər qalacağını bildirərək həyat yoldaşı, qızları və nəvəsi ilə birlikdə evinə qayıtmış, kənddən çıxmamışdır. Ermənistan Respublikasının hakimiyyət orqanları bu ailənin sonrakı taleyi barədə məlumatları gizlətmişdir.



**Əliyev Ağəli Nayib oğlu -**1935-ci ildə,

**Əliyeva Sürayə Behbud qızı -** 1936-cı ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olmuşlar. Bu ər və arvad 26 fevral 1992-ci il tarixdə Azərbaycan Respublikasının Xocalı şəhərinin Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşlər.

Xocalı şəhəri işğal olunanadək Ağali və Sürayə Əliyevlərlə birlikdə yaşamış, onların kürəkəni, hazırda Naftalan şəhəri «Şirvan» sanatoriyasında məskunlaşmış Mustafayev Nazim Ələkbər oğlu və gəlini, hazırda Bakı şəhəri, Sabunçu rayonu, «Santexmontaj»

pansionatında məskunlaşmış Həsənova Lətifə Musa qızı Dövlət Komissiyasına verdikləri ifadələrində sözügedən yaxın qohumlarının erməni işğalı zamanı yaşadıqları mənzili tərk etmədiklərini və sağ-salamat orada qaldıqlarını qeyd etmişlər.

Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, Xocalının işğalı zamanı şəhəri tərk etmiş yüzlərlə sakindən heç biri ifadəsində qaçmağa çalışan əhali arasında Ağali və Süreyanın adını çəkməmişdir. Bu da öz növbəsində onların evlərində qalması faktını təsdiq edir və girov götürülməsi ehtimalını gücləndirir. Sonrakı taleləri barədə məlumatlar ermənilər tərəfindən gizlədilmişdir.


*Əliyev Elçin*


*Əliyev Elgiz*

**Əliyev Elçin Firdovsi oğlu –** 1982-ci ildə,
**Əliyev Elgiz Firdovsi oğlu –** 1992-ci ildə,
**Əliyev Firdovsi İsa oğlu –** 1956-cı ildə,
**Əliyeva Heyran Mürşüd qızı –** 1962-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olmuşlar. Bu gənc ailənin üzvləri 1992-ci il fevral ayının 26-da doğulduqları və yaşadıqları Xocalı şəhərinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı şəhəri tərk etməyə məcbur olmuş və



Əliyev Firdovsi



Əliyeva Heyran

növbəti gün fevral ayının 27-də rayonun Naxçıvanlı kəndi yaxınlığında meşədə itkin düşmüşlər.

Hazırda Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində məskunlaşmış - Əliyev Firudin İsa oğlu, Bakı şəhəri, Xətai rayonu ərazisində məskunlaşmış - Hüseynov Şikar Mürşüd oğlu, Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində məskunlaşmış - Hüseynova Anahid Mürşüd qızı, Nərimanov rayonu ərazisində məskunlaşmış - Əliyeva Vəziyar Mürşüd qızı Dövlət Komissiyasına verdikləri ifadələrdə 1992-ci il fevral ayının 27-də Əliyevlər ailəsinin yüz nəfərədək Xocalı sakini ilə birlikdə Naçıvanlı kəndi yaxınlığındakı meşədə erməni hərbçilərinin mühasirəsinə düşdüklərini, gülləbaran nəticəsində dinc sakinlərin bəzilərinin həlak olduğunu, onlarla azərbaycanlının girov götürüldüyünü bildirmişlər.

Hadisənin şahidləri qeyd etmişlər ki, erməni hərbçiləri silahsız, mülki əhaliyə qəfil hücum etdikləri və güclü atəş açdıqları üçün insanlar biri-birini itirmiş, bir çoxunun, həmçinin əliyevlər ailəsinin sonrakı taleyi naməlum qalmışdır.

Sonradan Şikar Hüseynov bacısı - Heyranın ailə üzvləri ilə birlikdə girov aparılması və Ermənistanın Spitak şəhərində

saxlanılması xəbərini «Amerikanın səsi» radiosundan eşidtiyini söyləmiş, Vəziyar Əliyeva isə bu xəbəri Gürcüstanla qonşuluqda yerləşən Ermənistan kəndlərindən birində olmuş, adını xatırlamadığı jurnalist qadından öyrəndiyini bildirmişdir.

Bundan başqa, Əliyev Firdovsi və ailə üzvlərinin Ermənistan Respublikasının Spitak şəhərində erməni girovluğunda saxlanılması barədə şəkilaltı məlumat Dövlət Komissiyasının materialları əsasında 1994-cü ildə «Azərbaycan» nəşriyyatı tərəfindən ingilis və rus dillərində çap edilmiş «Onlar təhlükədədir» adlı kitabda da yer almışdır. Ailənin sonrakı taleyi barədə məlumatlar Ermənistan hakimiyyət dairələri tərəfindən gizlədilmişdir.

**Əliyev Əyyar Şərif oğlu** - 1961-ci ildə Cəlilabad rayonunun Vənlik kəndində doğulmuş, 19 yanvar 1994-cü il tarixdə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndinin müdafiəsi zamanı itkin düşmüşdür.


*Əliyev Əyyar*

Qardaşı - Əliyev Yusif Şərif oğlu Əyyarın son döyüş yerində axtarış aparan əsgər yoldaşlarına istinadən onun yaralı vəziyyətdə erməni hərbçiləri tərəfindən əsir götürüldüyünü bildirmişdir. O, eyni zamanda bildirmişdir ki, həmin vaxt Füzuli bölgəsində əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Seyid Əhəd adlı şəxs hava rabitəsi vasitəsilə erməni tərəfi ilə əlaqə yaratmış və Əyyarın əsir götürülməsi barədə məlumatı dəqiqləşdirmişdir. Buna baxmayaraq, ermənilər heç bir şərtlə qardaşını azad etməyə razı olmamışlar.

Döyüş yoldaşı - İbrahimov Kəmaləddin İbabəddin oğlu ifadəsində qeyd etmişdir ki, 19 yanvar 1994-cü il tarixdə Füzuli

rayonunun Yuxarı Seyidəhmədli kəndinin müdafiəsi zamanı o qardaşı Cəmaləddinın təkidi ilə onlarla birlikdə döyüşə getməmiş, arxa cinahda qalmışdır. Komandanlıqdan tapşırıq alan Cəmaləddin İbrahimov və 20 nəfər döyüş yoldaşı bir tank və «PDM» tipli zirehli maşına minərək Yuxarı Seyidəhmədli kəndinə tərəf irəliləmişlər. Yolda tank minaya toxunmuş, partlayış nəticəsində əsgərlər ətrafa səpələnərək, müxtəlif dərəcəli xəsarətlər almışlar. Partlayış vaxtı tankın üstündə onun qardaşı Cəmaləddindən başqa döyüş yoldaşları- Akif Cabbarov, Mübariz Sadıqov, Elxan Nəbiyev, **Əyyar Əliyev** də olmuşdur. Yanvarın 19-da axşamüstü saat 18 radələrində tankın minaya düşməsi xəbəri alınmış və K.İbrahimov dərhal əsgər yoldaşları ilə birlikdə yaralıların xilas edilməsi işinə başlamış, oradan 10-12 yaralı əsgər çıxara bilmişlər. Döyüş yerində onlar tankın yandığını görmüş, lakin havanın qaralması səbəbindən ona yaxınlaşa bilməmişlər. Səhəri günü onlar erməni hərbçilərinin tankı apardıqlarını müşahidə etmişlər. Növbəti gün döyüş yerinə kəşfiyyat dəstəsi göndərilsə də, itkin əsgərlərin sonrakı taleyi barədə məlumat əldə etmək mümkün olmamışdır.

Yuxarıda qeyd olunanlar Əliyev Əyyar Şərif oğlunun Ermənistan hərbçiləri tərəfindən əsir götürlməsini və beynəlxalq təşkilatlardan gizlədilməsini təsdiq edir.


Əliyev Xuduş

**Əliyev Xuduş Pənah oğlu -** 1910-cü ildə Qubadlı rayonunun Zor kəndində doğulmuşdur. 1993-cu ildə Qubadlı rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Gəlini - hazırda Abşeron rayonu, Novxanı kəndində məskunlaşmış Pənahova Güldanə Bəylər qızı ifadəsində bildirmişdir ki, 31 avqust 1993-cü il tarixdə Qubadlı rayonunun işğalı zamanı qaynatası X.Əliyevə onlarla birlikdə ərazini tərk etməyi təkid etsə də, o, bundan imtina etmiş və kənddə qalmışdır. İşğaldan sonra X.Əiyev haqqında məlumat əldə etmək mümkün olmamışdır.

**Əliyev Vidadi Cümşüd oğlu** – 1955-ci ildə Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olmuş, 19.07.1993- cü il tarixdə Ağdam rayonunun Şıxbabalı kəndinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.


Əliyev Vidadi

İtkinin döyüş yoldaşı, hazırda Sumqayıt şəhərində müvəqqəti məskunlaşmış, Ağdam rayon sakini - Nəsirov Barat İsa oğlu ifadəsində bildirmişdir ki, 19 iyul 1993-cü il tarixdə Ağdam rayonunun Şıxbabalı kəndindəki əkin sahəsində Ağdam rayonundan olan Əliyev Vidadi Cümşüd oğlu, Qurbanov Mehman Allahverdi oğlu və Lənkaranlı Qurbanov Müşviq Sabir oğlu ilə birlikdə düşmən ordusunun mühasirəsinə düşmüşlər. Şiddətli döyüşün gedişində Barat Nəsirov adı çəkilən döyüşçülərdən təxminən 20 metr aralıda və nisbətən əlverişli yerdə olduğu üçün mühasirədən çıxa bilmiş, döyüş yoldaşları isə yaralı vəziyyətdə əsir götürülmüşlər. Adı çəkilən Azərbaycan əsgərlərinin, o cümlədən Əliyev Vidadi Cümşüd oğlunun sonrakı taleyi barədə məlumatlar Ermənistan tərəfindən gizlədilmişdir.



**Əliyeva Yəmən Bayram qızı -** 1910-cu ildə,

**İsgəndərova Yasəmən İsa qızı** – 1931-ci ildə,Kəlbəcər rayonu, Seyidlər kəndində anadan olmuşlar. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı bu ana və qızı da itkin düşmüşlər.

Hazırda Göy-göl rayonu, 2 saylı internat məktəbinin inzibati binasında müvəqqəti məskunlaşmış Bayramov Ülfət Çıraq oğlu Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, 2 aprel 1993-cü il tarixdə - Kəlbəcər rayonunun işğalı zamanı onun atası Əliyev Çıraq Abbas oğlu ailə üzvlərini kənddən çıxarmağa məcbur olmuş, atasının bibisi Yəmən Əliyeva, onun qızı İsgəndərova Yasəmən İsa qızı və babası Əliyev Abbas Bayram oğlu isə kənddə qalmışdır. Bir gün sonra onları da çıxarmaq üçün geri dönmüş Çıraq Əliyev artıq Ermənistan ordusunun kəndi işğal etdiyinin şahidi olmuş və əraziyə girə bilmədiyi üçün geri qayıtmaq məcburiyyətində qalmışdır.

Sonradan 85 yaşlı babası – Əliyev Abbas Bayram oğlu ərazidən qaçan əhalini gətirən maşınlardan biri ilə gəlib çıxsa da, onun bacısı Yəmən Əliyeva və bacısı qızı Yasəmən İsgəndərova sağ-salamat yaşadıqları Kəlbəcər rayonunun Seyidlər kəndində qalmışlar. Onların sonrakı taleyi barədə məlumat əldə etmək mümkün olmamışdır.

**Əliyeva Çiçək Ələsgər qızı –** 1931-ci ildə,
**Əhmədova Durna Salman qızı –** 1922-ci ildə,
**Əhmədov Eldar Nayib oğlu –** 1945-ci ildə,



**Əhmədov Rəfil Nayib oğlu** – 1949-cu ildə Xocalı şəhərində anadan olmuşlar.

**Vəliyeva (Əhmədova) Sürəya Cavad qızı –** 1959-cu ildə Xocavənd rayonu, Qaradağlı kəndində anadan olmuşdur.

Bu ailə bütövlükdə 26 fevral 1992-ci il tarixdə Azərbaycan Respublikasının Xocalı şəhərinin Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Durna Salman qızı, oğlanları Eldar və Rəfil, gəlinləri Çiçək və Sürəya Xocalı şəhərinin işğalı gecəsi – 26 fevral 1992-ci il tarixdə yaşadıqları evləri tərk edərək digər sakinlərlə birlikdə xilas olmaq üçün Ağdam rayonu istiqamətində qaçmağa məcbur olmuşlar. Onlar Əsgəran rayonunun Dəhraz kəndi yaxınlığındakı meşədə erməni silahlı qüvvələrinin mühasirəsinə düşmüş, dinc əhali güclü güllə atəşinə məruz qalaraq müxtəlif istiqamətlərə dağılışmışdır. Nəticədə bu dəstədə olan insanların az bir hissəsi mühasirədən qurtularaq qaçıb Ağdama gələ bilsə də, onlarla sakin həlak olmuş və yaralanmışdır. Yüzlərlə dinc əhali düşmən qüvvələri tərəfindən girov götürülərək Dəhraz kəndi yaxınlığında mal tövləsinə gətirilmişdir. Girov götürülmüş üç yüz nəfərə yaxın əhali arasından hərbi və polis geyimində olan və digər saglam bədənli gənclər seçilərək Xankəndi istiqamətində aparılmış, qoca, qadın və uşaqlar isə fevralın 28-də Ağdamın Gülablı kəndinə gətirilərək azad edilmişlər. Mal tövləsində saxlanılan girovlar işgəncə və təhqirlərə məruz qalmış, pul və qiymətli əşyaları əllərindən alınmışdır. Girov götürülmüş əhali

arasında Durna Salman qızının digər oğlu- Arif Nayıb oğlu, onun həyat yoldaşı və üç körpə uşağı da olmuşdur.

Girovluqdan azad olunduqdan sonra ailəsi ilə birlikdə Naftalan şəhərinin «Qarabağ» sanatoriyasında məskunlaşmış Arif Əhmədov verdiyi ifadəsində itkin düşmüş qohumlarını meşə ilə gələrkən gördüyünü, sonradan onların arxada qaldıqlarını və sonrakı talelərindən xəbərsiz oldugunu bildirmişdir. İtkin düşmüş şəxslərin digər yaxın qohumları girovluqdan sağ qayıtmış xocalılarla söhbətlərinə istinadən təqdim etdikləri ifadələrində Durna Əhmədovanı və onunla birlikdə olmuş yaxın qohumlarını Dəhraz kəndi yaxınlığında sağ gördüklərini qeyd etmişlər.

Toplanmış məlumatların təhlili itkin düşmüş şəxslər- Əhmədova Durna Salman qızının, onun oğlanları Eldar və Rəfil Nayıb oğlu Əhmədovların, gəlinləri Əliyeva Çiçək Ələsgər qızı və Vəliyeva (Əhmədova) Sürəya Cavad qızının Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülməsinə əsas yaradır. Onların sonrakı taleyi barədə məlumatlar Ermənistan hakimiyyət dairələri tərəfindən gizlədilmişdir.

**Əhmədov Qalib İlyas oğlu** - 1969-cu ildə Bərdə rayonunun Gərənə kəndində anadan olmuş, 02.04.1993-cü il tarixdə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Kəlbəcər rayonunun Çaykənd kəndi uğrunda gedən döyüşlərdə itkin düşmüşdür.


*Əhmədov Qalib*

Döyüş yoldaşı olmuş həmkəndlisi Məmmədov Qəşəm Əhməd oğlu Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, Qaliblə birlikdə 1992-ci ilin dekabrında könüllü olaraq Bərdə taborunun tərkibində bir müddət Laçın rayonunun Qoçaz

dağında xidmət etmiş, sonradan Kəlbəcər rayonu ərazisinə göndərilmişlər. 1993-cü ilin aprel ayının əvvəllərində Yanşaq kəndinin müdafiəsi zamanı Ermənistan silahlı qüvvələrinin mühasirəsinə düşmüş Azərbaycan hərbçiləri çoxlu sayda canlı itkiyə məruz qalmışlar. Bu vaxt o, Qalibi boğazından sarıqlı vəziyyətdə «KAMAZ» markalı maşında görmüşdür. Qəşəm Məmmədovun dediyinə görə o, vuruşa-vuruşa geri çəkilmiş Qalib isə oturduğu maşında düşmən əlinə keçmişdir.

Yuxarıda göstərilənlər Əhmədov Qalib İlyas oğlunun Ermənistan hərbçiləri tərəfindən əsir götürülməsini və sonrakı taleyinin gizlədilməsini təsdiq edir.


Əmirov Əzim

**Əmirov Əzim Mehdi oğlu** – 1916-cı ildə Laçın rayonu, Tiyik kəndində anadan olmuş, Azərbaycan Respublikasının Laçın rayonunun Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı – 18 may 1992-ci il tarixdə itkin düşmüşdür.

Qızı – hazırda Şirvan şəhərindəki «Cihazqayırma» zavodunun yataqxanasında müvəqqəti məskunlaşmış, 1969-cu il təvəllüdlü Bahar Əmirova Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, 1992-ci ilin may ayının 16-da Ermənistan silahlı qüvvələrinin aramsız hücumları böyük gərginlik yaratmış və dinc əhali rayon ərazisini tərk etmək məcburiyyətində qalmışdır. Əzimovlar ailəsi də digərləri kimi, yaşadıqları Tiyik kəndini tərk etməyə məcbur olmuş, lakin bu vaxt 2-ci Dünya Müharibəsinin veteranı Əzim Əmirov ailə üzvlərinə və həmkəndlilərinə kəndi tərk etməyəcəyini bildirmiş: «Lazım gələrsə mühasirədə qalıb yaşayacağam» - demişdir. Kəndi sonda tərk etmiş

sakinlərin sonradan ailəyə verdiyi məlumata görə, Əzim Əmirov ailəsinə məxsus mal-qaranı kənddən çıxarmağa çalışarkən işğalçı Ermənistan əsgərləri tərəfindən girov götürülmüşdür.

Əzim Əmirovun sonrakı taleyi barədə məlumatlar ermənilər tərəfindən gizlədilmişdir.

**Əzizov Fikrət Abbas oğlu -** 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. 26 fevral 1992-ci il tarixdə Xocalı şəhərinin Ermənistan silahlı birləşmələri və keçmiş Rus Ordusunun 366-cı alayı tərəfindən işğalı zamanı itkin düşmüşdür.


*Əzizov Fikrət*

İtkinin həyat yoldaşı - hazırda Bakı şəhəri, Qaradağ rayonu, Qobustan qəsəbəsi, Salyan yolu, ev 30, mənzil 11-də məskunlaşmış Əzizova Səkinə İsfəndiyar qızı ifadəsində bildirmişdir ki, Fikrətin adını xatırlamadığı döyüş yoldaşının dediyinə görə, o, Xocalı şəhərinin işğalı zamanı mühasirəyə düşmüş və yaralanmışdır.

İtkinin qardaşı – Bakı şəhəri, Qaradağ rayonu, Qobustan qəsəbəsi, ev 23, mənzil 4 ünvanda yaşayan Əzizov Məmməd Abbas oğlu ifadəsində göstərmişdir ki, qardaşının axtarışı zamanı Allahverdi Bağırovun vasitəçiliyi ilə gürcü milliyətli bir şəxsdən onun Ermənistanın Gorus rayonunda saxlanıldığını öyrənmiş, lakin sonradan heç bir məlumat ala bilməmişdir.

Keçmiş girov - hazırda Bakı şəhəri, Nizami rayonu, Nizami prospekti, 22 ünvanda yaşayan Ələsgərova İradə Rəşid qızı ifadəsində bildirmişdir ki, girov götürüldükdən sonra onu Xocalıdakı mağazaya gətirmiş və 4 saat orada daha 20 nəfər girovla birlikdə saxlamışlar. O, girovların icərisində Bakı

şəhərindən olan Fikrət adlı bir yaralının yarasını sarımış, hətta buna görə, ermənilər tərəfindən təhqirə məruz qalmışdır. Mağazadan çıxarılarkən Fikrət ondan azad edilməsi üçün ailəsinə xəbər verməsini xahiş etmişdir.

Keçmiş girov, hazırda Naftalan şəhərindəki Qarabağ sanatoriyasında məskunlaşmış Hüseynov Elgiz Çingiz oğlu ifadəsində göstərmişdir ki, Xocalının işğalı zamanı o da digər dinc sakinlər kimi, girov götürülmüş və şəhərin kənarında yerləşən mağazaya gətirilmişdir. Burada o, 3 yaralı azərbaycanlı hərbçinin əsir saxlandığını görmüşdür, hərbçilərdən biri Bakı şəhər sakini, 27-28 yaşlı Fikrət imiş. E.Hüseynovun dediyinə görə, sonradan girovları Xankəndinə gətirərək məktəbin binasında saxlamışlar. Üç hərbçi isə mağazada qalmışdır. 1992-ci ilin mart ayının 1-də özünümüdafiə taborunun komandiri olmuş Allahverdi Bağırovun köməyi ilə azad edilərkən girov götürülən zaman saxlandıqları mağazanın qarşısında həmin 3 azərbaycanlı hərbçini hərəkətsiz vəziyyətdə görmüşdür. Lakin ermənilər onlara yaxınlaşmağa imkan verməmişlər. Ermənistanın hakimiyyət orqanları həmin üç şəxsin sonrakı taleyi barədə məlumatları gizlətmişdir.


*Əzizov Seymur*

**Əzizov Seymur Əmirxan oğlu -** 1971-ci ildə Ağsu rayonunda doğulmuşdur. 12 fevral 1994-cü il tarixdə, Kəlbəcər rayonu ərazisindəki Murovdağ ətrafında gedən döyüşlər zamanı itkin düşmüşdür.

8 may 1995-ci il tarixdə əsirlikdən azad olunmuş Abdüləliyev Yaşar Abdüləli oğlu və 10 may 1996-cı il tarixdə əsirlikdən azad olunmuş Həbiyev Eyvaz Həbi oğlu Dövlət Komis-

siyasına verdikləri ifadədə bildirmişlər ki, 17-18 fevral 1994-cü il tarixdə onlar Seymur Əzizovla birlikdə Murovdağdakı «Ömər» aşırımında mövqedə olmuş və mühasirəyə düşmələrinə baxmayaraq, düşmənin zirehli texnikasına qarşı avtomat silahların vasitəsi ilə gülləəri qurtaranadək bir neçə saat döyüş aparmışlar. Gülləəri bitdiyi üçün hava qaralana doğru onlar bir təpənin arxasına çəkilərək gözləmiş, sonradan mühasirədən çıxmaq məqsədi ilə Daşkəsən rayonu istiqamətinə hərəkət etmək qəqarına gəlmişlər. Hava bərk şaxta və qarlı olduğu üçün Yaşar Abdüləliyevin ayağını don vurmuş və yerimək imkanı olmamışdır. Seymur Əzizov və Eyvaz Həbiyev ona kömək edərək zirvəyə doğru bir müddət aparmışlar. Lakin artıq ətraf ermənilər tərəfindən işğal olunduğu və mühasirə daraldığı, eyni zamanda möhkəm yorulduqları üçün hərəkətsiz vəziyyətdə yıxılıb qarın üzərində qalmışlar. Bu vaxt onları yaxalamış erməni hərbçiləri atıcı silahların qundağı və təpiklə möhkəm döymüş, sürüyərək öz mövqelərinə aparmış və səhərə kimi müxtəlif işgəncələr verərək qarın üstündə saxlamışlar. Əsir götürülmələrinə baxmayaraq, Seymur ermənilərə olan nifrətini gizlətmir, müqavimət göstərir və işğalçı əsgərləri məhv etməsindən peşman olmadığını bildirirmiş. Buna görə, Ermənistan hərbçiləri ona daha çox işgəncə verirmişlər. Səhər onları Kəlbəcər rayonu, Yanşaq kəndində yerləşmiş Ermənistan silahllı birləşmələrinə aid hərbi hissəyə aparmış, orada təkrar işgəncələr verərək sorğu-sual etmişlər. Suallara ermənilərin istəyinə uyğun cavab vermədiyi və onları söydüyü üçün işğalçılar Seymuru və digərlərini yandıracaqları ilə hədələmişlər. Sonra onları biri-birindən ayırıb müxtəlif istiqamətlərdə aparmışlar. Seymur Əzizovun sonrakı taleyindən Yaşar Abdüləliyev və Eyvaz Həbiyevin xəbəri olmamışdır. Bildirdiklərinə görə, onları əsir götürmüş ermənilərin arasında «Ural» markalı maşının sürücüsü, Ağdərə rayonu, Horataq kəndində

yaşayan Qəhrəmanyan Yaşa da olmuşdur. Qəhrəmanyan Yaşa Eyvaz Həbiyevi bir müddət öz evində qul kimi saxlamışdır.

Əzizov Seymur Əmirxan oğlunun sonrakı taleyi barədə məlumatlar beynəlxalq təşktlatlardan gizlədilmişdir.



**Fərhadov Elşən Barat oğlu** – 1974-cü ildə Şuşa rayonu, Malıbəyli kəndində anadan olmuş, 1992-ci il fevral ayının 11-də yaşadığı Malıbəyli kəndinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı ailə üzvləri və həmkəndliləri ilə birlikdə kəndi tərk edərkən Quşçular kəndi istiqamətindən Kətik dağına çıxışda düşmən mühasirəsinə düşərək yaralı vəziyyətdə itkin düşmüşdür.

İtkinin atası Barat Fərhadov ifadəsində bildirmişdir ki, yaşadıqları Malıbəyli kəndinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı digər həmkəndiləri ilə yanaşı, onun ailəsi də doğma evlərini tərk etmək məcburiyyətində qalmışdır. Kənd hər tərəfdən mühasirəyə alındığı və mülki əhaliyə də aman verilmədiyi üçün dinc sakinlər «Kətik» dağına qalxıb mühasirədən çıxmağa çalışırmış. Həmin vaxt onun oğlu Elşən Fərhadov digər cavanlarla birlikdə kəndin müdafiəsində iştirak edirmiş. Lakin qüvvələr qeryi-bərabər olduğundan və silah-sursatın çatışmazlığı üzündən kəndin müdafiəsini davamlı şəkildə təşkil etmək mümkün deyilmiş. Vəziyyətin getdikcə çətinləşdiyini və ailə üzvlərinin, xüsusən qadınların girov götürüləcəyini hiss edən özünümüdafə dəstəsinin üzvləri, həmçinin Elşən Fərhadov üçün mülki əhalini sağ-salamat mühasirədən çıxarmaq zəruri idi. Ancaq düşmənin hər tərəfdən açdığı aramsız atəş nəticəsində

Elşən Fərhadov yaralandığı və hərəkət edə bilmədiyi üçün atasından ana və bacılarını götürüb getməyi təkidlə xahiş etmişdir. Barat Fərhadov oğlunu yaralı vəziyyətdə qoyub getməyə məcbur olmuş və ailənin digər üzvləri ilə birlikdə Ağdam rayonunun Abdal Gülablı kəndinə gəlib çıxmışdır.

Onun qeyd etdiyinə görə, onlardan 3-4 saat sonra mühasirədən çıxmağa nail olmuş həmkəndliləri - Şahlar Mehdiyev və Asif Rzayev də Elşəni sağ-salamat gördüklərini təsdiq etmişlər. Barat Fərhadov eyni zamanda bildirmişdir ki, erməni girovluğundan azad edilmiş, adını unutduğu yaşlı Kəlbəcər sakini ona təqdim olunmuş fotoşəkildən Elşəni tanımış, Şuşa şəhərindəki həbsxanada birlikdə saxlandıqlarını demişdır.

Hadisənin şahidi, yuxarıda adı çəkilən Şahlar Mehdiyev ifadəsində faktı təsdiq etmişdir. O, bildirmişdir ki, Malıbəylinin işğalı zamanı həmkəndliləri ilə Ağdam rayonu istiqamətinə gedərkən yolda Elşən Baratovu yaralı vəziyyətdə görsə də, onu özü ilə gətirə bilməmişdir.

Hadisənin digər şahidi Asif Rzayev Elşən Baratova yolda yaralı vəziyyətdə rastlaşdığını təsdiq etmiş və Ermənistan hərbçilərinin artıq onlara tam yaxınlaşdığını görüb oradan uzaqlaşmaq məcburiyyətində qaldığını bildirmişdir.

Azərbaycan Respublikasının Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı – 1 aprel 1993-cü il tarixdə girov götürülmüş və 8 may 1995-ci il tarixdə Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə azad edilmiş, hazırda Bərdə rayonu, Mirzəxanlı kəndində müvəqqəti məskunlaşmış, 1937-ci il təvəllüdlü Namazov Lətif Abutalıb oğlu ifadəsində bildirmişdir: «Kəlbəcər ermənilər tərəfindən işğal olunarkən məni girov götürdülər. Bir neçə gündən sonra Şuşa türməsinə gətirdilər. Fərhadov Elşən Barat oğlu ilə türmədə tanış oldum, 3 ay bir yerdə qaldıq. Sonra ermənilər Elşəni

oradan apardılar. Deyilənə görə, onu Mısmına adlı kəndə işləməyə apardılar. Sonra bir daha geri qaytarmadılar».

Beləliklə, aparılan araşdırmalar itkin düşmüş Elşən Fərhadovun Ermənistan hərbçiləri tərəfindən girov götürülməsi və beynəlxalq təşkilatlardan gizlədilərək işğal olunmuş Dağlıq Qarabağ ərazisində saxlanılması faktını təsdiq edir.



**Gülməmmədova Qəmsiyyə Burcalı qızı -** 1918-ci ildə Zəngilan rayonunun Alıbəyli kəndində anadan olmuşdur. 1993-cü ildə Zəngilan rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Qardaşı oğlu - hazırda Bakı şəhəri, Nizami rayonu, Rüstəmov küçəsi ev 76, mən. 57-də müvəqqəti məskunlaşmış Ağayev Fiday İsmayıl oğlu izahatında bildirmişdir ki, 1993-cü il oktyabr ayının 29-da Ermənistan ordusu Zəngilan rayonuna daxil olarkən bibisi Q.Gülməmmmədova iflic vəziyyətdə öz evində yatırmış. Hərəkət etmək imkanının məhdudluğu üzündən onu ərazidən çıxarmaq mümkün olmamış və sağ-salamat evdə qalmışdır. Sonradan barəsində heç bir məlumat əldə edilməmişdir.

**Hacıyeva Qəmər Əbdülqasım qızı** -1906-cı ildə Şuşa şəhərində anadan olmuş, 09.05.1992-ci il tarixdə Şuşa şəhərinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Qızı, hazırda Bakı şəhərində məskunlaşmış - Hacıyeva Fəridə Bəhrəm qızı Dövlət Komissiyasına verdiyi ifadədə bildirmişdir ki, ondan başqa, itkin şəxsin İsrafil, İsmayıl və Rəhim



adlı üç oğul övladı da olmuşdur. Onların üçü də Şuşanın işğalından sonra ailə üzvləri ilə birlikdə Bakı şəhərinə gəlmiş, Yeni Yasamal qəsəbəsində məskunlaşmış, 2003- 2007-ci illərdə xəstəlikdən vəfat etmişlər.

F.Hacıyevanın bildirdiyinə görə qardaşları 8 may 1992-ci ildə Şuşa şəhərinin işğalı zamanı Qəmər Hacıyevanın yaşadığı M.F.Axundov küçəsi ev 25 ünvanda olmuş, yaşlı, lakin sağlam olan analarını özləri ilə götürüb aparmaq istəsələr də buna nail ola bilməmişlər. Anasının inadkarlığını görən İsmayıl Ermənistan hərbçilərinin əlinə keçməmək üçün qardaşlarına ailə üzvlərini də götürüb Şuşadan çıxmağı tapşırmışdır. Bir gün sonra, mayın 9-da qonşuluqda yaşayan erməni tanışları Qəmərin evinə gələrək şəhərin işğal olunduğunu İsmayıla bildirmiş, anasından muğayat olacaqlarını, sağ qalmaq üçün qaçıb aradan çıxmağını məsləhət bilmişlər. İsmayıl anası ilə xudahafizləşib meşə yoluna çıxmış, bir gecə yol gedərək Laçın rayonunun «Qayğı» qəsəbəsinə çatmışdır. Oradan isə işğal olunmuş bölgədən məcburi köçkünə çevrilmiş azərbaycanlıların köç maşınına minərək Bakı şəhərinə gəlmişdir. O vaxtdan bu günədək anasından bir xəbər çıxmamışdır.

Fəridə Hacıyeva Azərbaycanın incəsənət tarixi üçün çox maraqlı bir məqamı da açıqlamışdır. Onun dediyinə görə, gənclik illərində anasının gözəlliyi məşhur muğam ustası Xan Şuşinskinin valeh etmiş və «Qəmərim» adlı məşhur xalq mahnısını onun gözəlliyinə ithaf etmişdir. Bu mahnı indi də xanəndələrimizin repertuarında özünə müntəzəm yer alır və xalq tərəfindən sevilir.

Yuxarıda göstərilənlər Hacıyeva Qəmər Əbdülqasım qızının Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunmuş Şuşa şəhəri ərazisində qalaraq girov götürülməsi və beynəlxalq təşkilatlardan gizlədilməsi məlum olur.

**Hacıyev Mürvət İzzət oğlu -** 1974-cü ildə Kəlbəcər rayonu, Nadirxanlı kəndində anadan olmuşdur. 6-7 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu ərazisindəki Meydançay çayı ətrafında gedən döyüşlər zamanı itkin düşmüşdür.



*Hacıyev Mürvət*

Qeyd olunan döyüşlərdə iştirak etmiş və Ermənistan Respublikası silahlı birləşmələrinin mühasirəsindən sağ çıxmış, Azərbaycan Respublikası Müdafiə Nazirliyi «N» saylı hərbi hissənin tağım komandiri, hazırda Mingəçevir şəhərində yaşayan Nizami Məhərrəmov ifadəsində adı çəkilən döyüşlərdə Ermənistan hərbçiləri tərəfindən bir neçə Azərbaycan əsgərinin əsir götürülərək aparıldığını və onların arasında Kəlbəcər rayonunun Nadirxanlı kənd sakini, Zəylik sərhəd postunun əsgəri Mürvət Hacıyevin də olduğunu bildirmişdir. Onun sonrakı taleyi barədə məlumatlar gizlədilmişdir.



**Hacıyeva Seyran Qüdrət qızı -** 1932-ci ildə Zəngilan rayonunun Tatar kəndində doğulmuş, orada yaşamış və 1993- cü ilin oktyabr ayında həmin kəndin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Qardaşı - Tarverdiyev Abbas Qüdrət oğlu Dövlət Komissiyasına verdiyi ifadədə bildirmişdir ki, Hacıyeva Seyran Qüdrət qızı onun ögey bacısı olsa da, onlar eyni kənddə doğma bacı-qardaş kimi həmişə mehriban yaşamışlar. Seyran Hacıyeva ailə həyatı qurmamış və tənha yaşamışdır. 27 oktyabr 1993-cü ildə Zəngilan rayonunun işğalı zamanı Tatar kəndinin bütün sakinləri kimi onlar da ailə üzvləri ilə birlikdə Araz çayının kənarına, İran İslam Respublikası ilə sərhədə tərəf getməyi qərara almışlır. Həmin gün Seyran da onların evinə gəlmiş və Abbas ona bir dəst yorğan-döşək götürərək onlarla birlikdə getməsini xahiş etmişdir. Lakin Seyran Hacıyeva onun təkid və xahişlərinə məhəl qoymayaraq öz evinə qayıdacağını və mal-qarasını rahatlayandan sonra arxalarıca gələcəyini bildirmişdir. Lakin Seyran Hacıyeva sonradan onların arxasınca gəlməmiş və işğal olunmuş Tatar kəndində öz evində sağ-salamat qalmışdır. O vaxtdan bu günədək onun sonrakı taleyi barədə məlumat almaq mümkün olmamışdır.

Göstərilənlər Hacıyeva Seyran Qüdrət qızının Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunmuş Zəngilan rayonunun Tatar kəndi ərazisində girov götürülməsini və gizlədilməsini təsdiq edir.


Həsənov Abil

**Həsənov Abil Nurəddin oğlu -** 1974-cü ildə Kəlbəcər rayonu, İlyaslar kəndində anadan olmuşdur. 6-7 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu ərazisindəki Meydançay çayı ətrafında gedən döyüşlər zamanı itkin düşmüşdür.

Qeyd olunan döyüşlərdə iştirak etmiş və Ermənistan Respublikası silahlı birləşmələrinin mühasirəsindən

sağ çıxmış, Azərbaycan Respublikası Müdafiə Nazirliyi «N» saylı hərbi hissənin tağım komandiri, hazırda Mingəçevir şəhərində yaşayan Nizami Məhərrəmov ifadəsində adı çəkilən döyüşlərdə Ermənistan hərbçiləri tərəfindən əsir aparılmış əsgərlərin arasında Kəlbəcər rayonunun İlyaslar kənd sakini, Zəylik sərhəd postunun əsgəri Abil Həsənovun da olduğunu bildirmişdir. Bu faktı onun döyüş yoldaşı, Kəlbəcər rayonu, Zivel kənd sakini, hazırda Gəncə şəhəri, Gülüstan qəsəbəsində məskunlaşmış Bağırov Çingiz Əmralı oğlu da ifadəsində təsdiq etmişdir. Barəsində məlumatlar ermənilər tərəfindən gizlədilmişdir.



**Həsənova Mülayim Mürşüd qızı -** 1904-cü ildə Kəlbəcər rayonu, Şurtan kəndində anadan olmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Oğlu - Ağdaş rayonunun Aşağı Zeynəddin kəndində məskunlaşmış Həsənov Yediyar Bəxtiyar oğlu Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, erməni silahlı qüvvələrinin hücumu ilə əlaqədar 1993-cü il mart ayının 31-də azyaşlı uşaqlarını avtomaşınla kənddən çıxarmışdır. Anası M.Həsənovanı və ev əşyalarını götürmək üçün geri qayıdarkən artıq kəndin işğal olunduğunun və yolların bağlandığının şahidi olmuşdur. Bu səbəbdən də kənddə sağ-salamat qalımış anasını çıxarmaq mümkün olmamışdır. Sonradan Ermənistanın hakimiyyət orqanları onun barəsində məlumatları gizlətmişdir.



**Hüseynov Qaraoğlan Nəsir oğlu** - 1909-cu ildə Qubadlı rayonu, Əfəndilər kəndində doğulmuşdur. 1993-cü ildə Qubadlı rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Kürəkəni - hazırda Sumqayıt şəhəri, 4-cü mk/r., ev $32^{a}$ mən. 39-da yaşayan Məmmədov Əli Hümbət oğlu bildirir ki, qayınatası Q.Hüseynov itkin düşənədək onunla birlikdə Qubadlı rayonunun Xanlıq kəndində yaşamışdır. 30 avqust 1993-cü il tarixdə Ermənistan ordusunun qəfil hücumu zamanı Q.Hüseynov xəstə olduğuna və gözləri görmədiyinə görə, kənddən çıxa bilməmiş sağ-salamat halda evlərində qalmışdır. O vaxtdan haqqında heç bir məlumat əldə edilməmişdir.



**Xudiyev Əyyub Şərif oğlu -** 1907-ci ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Süleymanlı kəndində anadan olmuşdur. 1993-cü ildə Cəbrayıl rayonunun işğalı zamanı girov götürülmüşdür.

İtkinin oğlu - hazırda Bakı şəhəri, Nəsimi rayonu, Tağızadə küçəsi 21, ev 39 ünvanda məskunlaşmış Xudiyev Qabil Əyyub oğlu izahatında bildirmişdir ki, atası 1993-cü il avqust ayının 20–də yaşadığı Süleymanlı kəndinin yaxınlığında şəxsi mal-qarasını otaran zaman ermənilər

tərəfindən girov götürülmüşdür. Onunla birlikdə girov saxlanılmış Gülbala (soyadını, atasının adını və ünvanını qeyd etmir) adlı şəxslə Xankəndi şəhərində yerləşən mərkəzi həbsxanaya salınmışdır.

Keçmiş girov, hazırda Bərdə rayonu, dəmiryol stansiyasındakı vaqonda məskunlaşmış Abdullayev Ərşad Əvəz oğlu ifadəsində 1993-cü il iyul ayının 23-də girov götürüldüyünü, iyulun 28-də Xankəndinə aparılıraq Ə.Xudiyevlə birlikdə saxlanıldığını bildirmişdir. Ə.Abdullayevin dediyinə görə, Ə.Xudiyev orada vəfat etmişdir.

Ermənilər tərəfindən girov götürülmüş Sara Mirim qızı İsmayılovanın qızı Ağayeva Əminə Şükar qızı (hazırda Sumqayıt şəhəri, 18 kv, ev 1/10, mənzil 21-də yaşayır) tərəfindən Dövlət Komissiyasına təqdim edilmiş, işğal altında olan Xocavənd rayonunda saxlanılmış azərbaycanlı əsir və girovların siyahısında Əyyub Xudiyevin də adı vardır. Ermənistan hakimiyyət dairələri onun sonrakı taleyi barədə məlumatları gizlətmişlər.

**İbadova Səkinə Salah qızı -** 1900-cü ildə Kəlbəcər rayonu, Corman kəndində anadan olmuş, rayonun Əsrik kəndində yaşamışdır. Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı 3 aprel 1993-cü il tarixdə itkin düşmüşdür.


*İbadova Səkinə*

İtkinin oğlu – hazırda Göygöl rayonu, Murovdağ qəsəbəsində məskunlaşmış Bəylərov Əvəz İsa oğlu ifadəsində bildirmişdir ki, 1993-cü ilin aprel ayının 3-də yaşadıqları Əsrik kəndi işğala məruz qalarkən

əhali ilə birlikdə onların ailəsi də kəndi tərk etmək məcburiyyətində qalmışdır. Lakin bu vaxt onların təkidlərinə baxmayaraq, yaşlı anası - Səkinə İbadova evini tərk etmək istəmədiyini bildirərək sağ-salamat kənddə qalmışdır. Ermənistan hakimiyyət orqanları onun sonrakı taleyi barədə məlumatları gizlətmişdir.


*İbadov Şirin*

**İbadov Şirin Tapdıq oğlu** - 1932-ci ildə Laçın rayonunun Lolabağırlı kəndində anadan olmuş, 23.07.1993-cü il tarixdə Ağdam şəhərinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Oğlu – hazırda Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsində məskunlaşmış İbadov Qabil Şirin oğlu Dövlət Komissiyasına verdiyi ifadədə bildirmişdir ki, Ermənistan silahlı birləşmələrinin Ağdam şəhərini işğalından bir neçə gün əvvəl o, atasını gətirmək üçün müvəqqəti məskunlaşdığı Sumaqayıtdan Ağdam şəhərinə getmişdir. Lakin onun xahiş və təkidlərinə əhəmiyyət verməyən atası Şirin yaşadığı evi tərk etməmiş, doğma torpağını atıb heç yerə getməyəcəyini inadla bəyan edərək orada qalmışdır. Atasının inadkarlıqla öz yurdundan çıxmayacağına əmin olan Q.İbadov məcburiyyət qarşısında evlərini tərk edərək getmiş və bu günədək onun sonrakı taleyi barədə məlumat ala bilmədiyini qeyd etmişdir.

Yuxarıda göstərilən fakt İbadov Şirin Tapdıq oğlunun Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunmuş Ağdam şəhərində girov götürüldüyünü və gizlədildiyini təsdiq edir.


*İbrahimov Cəmallədin*

**İbrahimov Cəmallədin İbadəddin oğlu -** 1959-cu ildə Bakı şəhərində doğulmuş, 19 yanvar 1994-cü il tarixdə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndinin müdafiəsi zamanı itkin düşmüşdür.

Qardaşı, eyni zamanda döyüş yoldaşı olmuş - İbrahimov Kəmaləddin İbadəddin oğlu Dövlət Komissiyasına verdiyi ifadədə bildirmişdir ki, 1994-cü ilin yanvar ayının 19-da komandanlıq tərəfindən verilmiş əmrə əsasən Cəmaləddin İbrahimov və 20 nəfər döyüş yoldaşı bir tank və «PDM» tipli zirehli maşına minərək Yuxarı Seyidəhmədli kəndinə tərəf irəliləmişlər. O, isə qardaşının təkidi ilə onlarla birlikdə döyüşə getməmiş, arxa cinahda qalmışdır. Yolda tank minaya toxunmuş, partlayış nəticəsində əsgərlər ətrafa səpələnərk, müxtəlif dərəcəli xəsarətlər almışlar. Partlayış vaxtı tankın üstündə onun qardaşı Cəmaləddindən başqa döyüş yoldaşları-Elxan Nəbiyev, Mübariz Sadıqov, Akif Cabbarov, Əyyar Əliyev də olmuşdur. Həmin gün axşamüstü, saat 18 radələrində tankın minaya düşməsi xəbəri alınmış və K.İbrahimov dərhal əsgər yoldaşları ilə birlikdə yaralıların xilas edilməsi işinə başlamış, oradan 10-12 yaralı əsgər çıxara bilmişlər. Döyüş yerində onlar tankın yandığını görmüş, lakin havanın qaralması səbəbindən ona yaxınlaşa bilməmişlər. Səhəri günü onlar erməni hərbçilərinin tankı apardıqlarını müşahidə etmişlər. Növbəti gün döyüş yerinə kəşfiyyat dəstəsi göndərilsə də, itkin əsgərlərin sonrakı taleyi barədə məlumat əldə etmək mümkün olmamışdır.

K.İbrahimov eyni zamanda, qeyd etmişdir ki, 1995-ci ildə onun ev telefonuna naməlum zəng daxil olmuş və danışan şəxs dəstəyi qaldırmış həyat yoldaşına: «Solmaz sənsən, Camaldı»

- sözlərini bir neçə dəfə təkrarlamış, səs qırıq- qırıq gələrək, sonradan kəsilmiş və bir daha təkrarlanmamışdır. Onun bildirdiyinə görə, onlar öz aralarında Cəmaləddini «Camal» deyə də çağırırmışlar.

Yuxarıda qeyd olunanlar İbrahimov Cəmallədin İbadəddin oğlunun Ermənistan hərbçiləri tərəfindən əsir götürlməsini və beynəlxalq təşkilatlardan gizlədilməsini təsdiq edir.


İbrahimov Qüdrət

**İbrahimov Qüdrət Səfiqulu oğlu -** 1941-ci ildə Azərbaycan Respublikasının Laçın rayonu Quşçu kəndində anadan olmuşdur. 1992-ci ilin may ayının 18-də Laçın rayonunun Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı girov götürülmüşdür.

Oğlu - hazırda Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsindəki Kənd Təsərrüfatı müəssisəsinin binasında məskunlaşmış İbrahimov Yunis Qüdrət oğlu ifadəsində bildirmişdir ki, atası 1992-ci il may ayının 18-də Laçın rayonunun Qayğı qəsəbəsi ərazisində mal-qara otararkən həmin rayonun Qarqışlaq kənd sakini Kərimov Həsən Səlim oğlu ilə birlikdə Ermənistan hərbçiləri tərəfindən girov götürülmüşdür. 6-8 aydan sonra Həsən qaçaraq girovluqdan xilas olmuşdur. Həsənin dediyinə görə, onları Xankəndinə aparmışlar. Burada möhkəm döyüldüyü üçün Qüdrətin halı pisləşdiyindən onu saxlamış, Həsəni isə Tuğ kəndinə aparmışlar. Bundan sonra Həsən Qüdrəti görməmişdir.

Araşdırma nəticəsində Kərimov Həsən Səlim oğlu müəyyənləşdirilmiş və faktla bağlı ifadəsi alınmışdır. Keçmiş girov Kərimov Həsən Səlim oğlu (hazırda Bakı şəhəri Xəzər rayou, Buzovna qəsəbində məskunlaşmışdır) bildirmişdir ki, Laçın ray-

onunun işğalı zamanı ərazini tərk edərkən Ermənistan hərbçiləri tərəfindən Musayev Qamboy Mütəllim oğlu, İbrahimov Qüdrət Səfiqulu oğlu və adlarını bilmədiyi daha beş nəfərlə birlikə girov götürülərək ermənilər yaşayan kəndə (adını qeyd etmir) aparılmışdır. Xankəndində adını çəkdiyi şəxslərlə birlikdə saxlanılmışdır. Dediyinə görə, Xankəndində saxlanılarkən Qüdrət İbrahimovu gecə ikən kameradan çıxarıb aparmış, geri qaytarmamışlar. Ondan sonra İbrahimin taleyindən xəbəri olmamışdır.

Keçmiş girov, hazırda İsmayıllı rayonu, Talıstan kəndində yaşayan Musayev Qamboy Mütəllim oğlu ifadəsində bildirmişdir ki, girov götürülərək bir gecə Xankəndində onunla birlikdə saxlanılan Qüdrət İbrahimovu dəyişmək adı ilə Əsgəran rayonuna aparmış, lakin dəyişmə baş tutmadığından geri qaytarmışlar. 2 ay 5 gün ərzində Qüdrət və Həsənlə birlikdə Xankəndi həbsxanasında saxlanılmışdır. Sonra Q.Müsayev dəyişildiyindən Qüdrətin taleyindən xəbəri olmamışdır.



**İlyasova Gözəl İsa (Hüseyn) qızı** – 1915-ci ildə,

**İlyasov İsaq Həsən oğlu -** 1910-cu ildə Kəlbəcər rayonu, Otaqlı kəndində anadan olmuşlar. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşlər.

Qohumları - Gəncə şəhəri, Kəpəz rayonu, $369^b$ saylı binada məskunlaşmış Rzayev İsmayıl Ramazan oğlu ifadəsində bildirmişdir ki, 31 mart 1993-cü il tarixdə Ermənistan hərbi qüvvələri Kəlbəcər rayonuna daxil olarkən İlyasova Gözəl İsa qızı və onun həyat yoldaşı İlyasov İsaq Həsən oğlu digər kənd sakinləri ilə bərabər

ərazini tərk etmək üçün vertalyota minmişlər. Lakin vertalyot qəzaya uğramış, bir nəfər həlak olmuş, bir neçə adam da yaralanmışdır. Pilotun səyi nəticəsində salamat qalmış kənd sakinləri digər vertalyota minərkən **İlaysova Gözəl İsa qızı** və onun həyat yoldaşı **İlyasov İsaq Həsən oğlu** onlarla bərabər getməkdən imtina etmiş və geriyə - öz evlərinə qayıtmışlar. Kənd sakinləri vertaylotla ərazini tərk etmiş, onların sonrakı taleyindən isə xəbər olmamışdır.



**İlyasova Saçlı (Növrəstə) Qədim qızı** - Kəlbəcər rayonunun Şurtan kəndində anadan olmuşdur, təvəllüdü məlum deyil. 6-7 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu, Milli kəndi ərazisində qalmışdır.

Oğlu – hazırda Mingəçevir şəhərində məskunlaşmış Kəlbəcər rayonu, Dünyamalılar kənd sakini, Dünyamalıyev Hacıağa Heydər oğlu ifadəsində bildirmişdir ki, Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonuna şiddətli hücuma keçərkən onlar da əhali ilə birlikdə daimi yaşayış yerlərini tərk etmək məcburiyyətində qalmışlar. Lakin onların təkidinə baxmayaraq, anası Saçlı evini tərk etməyəcəyini, orada öləcəyini bildirərək kənddə qalmışdır.

Həmin dövrdə Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsinin əsgəri olmuş, Kəlbəcər rayonu, Zar kənd sakini, hazırda Mingəçevir şəhərində məskunlaşmış Abbasov Malik İdris oğlu ifadəsində bildirmişdir ki, onun xidmət etdiyi tağım Nizami Məhərrəmovun komandanlığı altında Zəylik sərhəd postunda yerləşmişdir. Rayon ərazisinə güclü hücumun başlandığı barədə məlumat əldə etdikdən sonra tağım Kəlbəcər şəhərinə

doğru irəliləmişdir. Bu vaxt o, yolüstü sakini olduğu Zar kəndinə daxil olaraq atası İdris və anası Əminə Abbasovları özü ilə götürsə də babası Məmməd və nənəsi Şura Məmmədovlar onun və digər hərbçi yoldaşlarının təkidinə baxmayaraq, kəndlərini tərk etməmişlər və yaşıdıqları evdə qalmışlar. Hərbçilərdən və mülki əhalidən ibarət dəstə qarda və çovğunda piyada Qaracanlı kəndinə çatmışlar. Həmin kəndin əhalisi kəndi tərk etsə də, Minə və Sona adlı 35-40 yaşlı kimsəsiz bacılar da onlara qoşulub Qaracanlı kəndindən çıxmaqdan imtina etmişlər. 2-3 gün Qaracanlı kəndində qalan dəstə Milli kəndi istiqamətinə hərəkət etmişdir. MIli kəndinə çatanda Ermənistan silahlı birləşmələrinin mühasirəsinə düşən və güclü atəşə məruz qalan dəstə bir neçə hissəyə bölünmüşdür. 20-dən artıq canlı qüvvənin itiriməsinə və əsir götürlməsinə baxmayaraq, Azərbaycan hərbçiləri mühasirəni bir neçə istiqamətdən yararaq mülki əhalinin əsas hissəsini atəş altından çıxara bilmişlər. Malik Abbasovun atası İdris Abbasov özünü pis hiss etdiyi, yaşlı qadın **Saçlı İlyasova** isə yeriyə bilmədiyi üçün onları Milli kəndindəki evlərdən birində yerləşdirmək məcburiyyətində qalmışlar. Mühasirədən çıxıb qarşıdakı hündür dağa qalxanda artıq Milli kəndinin ermənilər tərəfindən işğal edildiyinin və evlərin talanaraq yandırıldığının şahidi olmuşlar.



**İmoyeva Əsli Ələmşah qızı -** 1915-ci ildə Kəlbəcər rayonunun Tək Dam kəndində anadan olmuş, həmin rayonun Alolar kəndində yaşamışdır. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Qızı - hazırda Tərtər rayonu, Səhlabad kəndində məskunlaşmış Camalova Tamara Fərhad qızı verdiyi izahatda bildirmişdir ki, 1993-cü ildə Kəlbəcər rayonunun işğalı zamanı yaşadıqları Alolar kəndini tərk edən zaman anası Ə.İmoyeva çəliyinə söykənərək onlarla birlikdə bir az getmiş, lakin yaşlı olduğu üçün yeriyə bilmədiyindən geriyə - evinə qayıtmışdır. Sonradan barəsində məlumat ədə edilməmişdir.

Nəvəsi - hazırda Goranboy rayonunun Qaraçinar kəndində məskunlaşmış Əsədov İbrahim Ədilxan oğlu Dövlət Komissiyasına verdiyi ifadədə təsdiq edir ki, nənəsi Ə.İmoyeva 1993-cü il aprel ayının 2-də Kəlbəcər rayonunun işğalı zamanı ərazini tərk etmək məqsədi ilə qohumları ilə birlikdə vertalyota minmək üçün gəlmiş, lakin minə bilmədiyindən geri qayıtmışdır. Nənəsinin sonrakı taleyi barədə heç bir məlumat əldə edə bilməmişlər.



**İsmayılov Hidayət Mənsim oğlu -** 1929-cu ildə,

**İsmayılova Pəri İsmayıl qızı -** 1931-ci ildə Kəlbəcər rayonunun Lev kəndində anadan olmuşlar. Ailə qurub həmin kənddə yaşamışlar. Onların oğlu Ənvər İsmayılovun ifadəsinə görə, 1993-cü ilin aprel ayının 2-də ata-anasını sağ-salamat evdə qoyub azyaşlı qızlarını kənddən çıxarmış və çətinliklə Daşkəsən rayonuna gətirmişdir. Atasını və anasını da çıxarmaq üçün təkrar kəndlərinə qayıtmaq istəsə də artıq rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu üçün ora qayıda bilməmişdir. Bundan sonra onların barəsində məlumatı olmamışdır.



**İsmayılov Vidadi Lətif oğlu** - 1966-cı ildə Azərbaycan Respublikası, Dağlıq Qarabağ Vilayətinin Xocalı şəhərində anadan olmuş, 1 mart 1992-ci il tarixdə Əsgəran rayonunun Pircamal kəndi ərazisində itkin düşmüşdür.

Aparılmış araşdırma zamanı məlum olmuşdur ki, rayonun polis şöbəsinin əməkdaşı olmuş Vidadi İsmayılov 26 fevral 1992-ci il tarixdə Xocalı şəhərinin Ermənistan silahlı qüvvələri və Rusiyaya məxsus 366 alay tərəfindən işğalı zamanı 60 nəfərə yaxın həmyerlisi ilə birlikdə xilas olmaq üçün Ağdam rayonu istiqamətində getməyə cəhd göstərmişdir. Bir həftə ərzində soyuq və qarlı havada meşədə gizlənmiş dinc sakinlər 1 mart 1992-ci ildə girov götürülərək Əsgəran rayonu, Pircamal kəndindəki mal fermasına gətirilmişlər. Taxtadan tikilmiş fermada saxlanılmış, əsasən qoca, qadın və uşaqlardan ibarət 100 nəfərdən çox azərbaycanlı əsir və girov ağır işgəncə və təhqirlərə məruz qalmış, pul və zinət əşyaları götürülmüş, müqavimət göstərən 2 gənc vəhşicəsinə döyülərək öldürülmüşdür. Vidadi İsmayılov və 3 nəfər sağlam oğlan seçilərək güllələnmək adı ilə naməlum istiqamətə aparılmışdır.

Bu faktı göstərilən mal fermasında girovluqda saxlanılmış və sonradan azad olunmuş Xocalı sakinlərindən - Kərimova Almara İfrat qızı və Abdullayeva Sənəm Həsən qızı ifadələrində təsdiq etmişlər. Girov götürülmüş mülki şəxslərin arasından seçilərək sağ-salamat aparılmış Vidadi İsmayılov və digər iki nəfərin sonrakı taleyi barədə məlumatlar Ermənistan tərəfindən gizlədilmiş və müharibə qurbanı olmuş bu şəxslərin yaxınları hələ də doğmalarının yolunu gözləməkdə davam edir.



**Kazımov Ələsgər Ələsgər oğlu** - 1948-ci ildə Kəlbəcər rayonunun Başlıbel kəndində doğulmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Oğlu - hazırda Yevlax şəhəri, Tanrıqulular kəndində məskunlaşmış Ələsgərov Ələkbər Ələsgər oğlu izahatında bildirmişdir ki, 1993-cü ildə erməni silahlı qüvvələrinin Kəlbəcər rayyonuna hücumu zamanı atası Ələsgər Ələsgər oğlu Kazımov öz doğma yurdunu tərk etməyəcəyinə and içmiş: «Bu torpaqda doğulmuşam, bu torpaqda da öləcəyəm» - deyərək kənddən çıxmayacağını bildirmişdir. Məcbur olub ailəsi ilə bərabər ərazini tərk edən Ə.Ələsgərov sonradan nə qədər çalışsa da atasının taleyi haqqında heç bir məlumat öyrənə bilməmişdir.

Kəlbəcər Rayon İcra Hakimiyyəti də Ə.Ələsgərovun itkin düşdüyünü təsdiq etmişdir.


*Kərimov Nurlan*

**Kərimov Nurlan Məhiş oğlu** - 1974-cü ildə Bərdə rayonunun Şirvanlı kəndində anadan olmuşdur. 23 yanvar 1994-cü il tarixdə Kəlbəcər rayonu ərazisindəki Buzluq yüksəkliyi uğrunda gedən döyüşdə itkin düşmüşdür.

Nurlan Kərimovun döyüş yoldaşı olmuş, Bərdə rayon sakini - Əsədov Gəray Xəlil oğlu ifadəsində bildirmişdir ki, 23 yanvar 1994-cü il tarixdə Kəlbəcər rayonunun Bağırlı kəndi ya-

xınlığında, Buzluq yüksəkliyi uğrunda gedən döyüşdə Kərimov Nurlan Məhiş oğlu, Əliyev Azər Fərrux oğlu ilə birlikdə imiş. Hava dumanlı olduğu üçün Nurlan və Azəri meşədə itirmişlər. Duman çəkildikdən sonra hər ikisinin çayın o biri tərəfində qolu bağlı vəziyyətdə beş erməni döyüşçüsü tərəfindən əsir aparıldığını görmüşlər. Gəray Əsədovun məlumatına görə, bu faktı həmin döyüşdə iştirak etmiş digər döyüşçülər də görmüşdür. Sağ olanlar təsdiq edə bilər.

Dövlət Komissiyasında olan məlumata əsasən, Əliyev Azər Fərrux oğlu 46 azərbaycanlı əsirlə birlikdə Xankəndi həbsxanasında saxlanılmışdır. Nurlan Kərimovun da onların arasında olması şübhə doğurmur. Onların sonrakı taleyi barədə məlumatlar gizlədilmişdir.



**Qasımova Şamama Əlibaba qızı** - 1913-cü ildə Ağdam rayonunun Seyidli kəndində anadan olmuşdur. 23.07.1993-cü il tarixdə Ağdam şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Qızı – Hazırda Bərdə rayonu, Dəymədağlı kəndində müvəqqəti məskunlaşmış Qasımova Simuzər Əli qızı ifadəsində göstərmişdir ki, o həyat yoldaşı Qasımov Nəcməddin Rza oğlu və anası Şamama Ağdam şəhəri, Rəcəb Gözəlov küçəsi, ev 78 ünvanda birgə yaşamışlar. İşğaldan bir gün əvvəl, yəni 1993-cü il iyulun 22-də o, həyat yoldaşı Nəcməddin ilə birlikdə Bərdə rayonunun Dəymədağlı kəndində ərdə olan qızı Rəsmiyyə Mahmudova gilə qonaq getmişlər. Növbəti gün evlərinə qayıdarkən Ağdam rayonu, Qərvənd kəndində hərbçilər onları saxlamış və rayon

mərkəzinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunduğunu bildirmişlər. Onun və həyat yoldaşının təkidlərinə baxmayaraq, Azərbaycan hərbçiləri onları Ağdam şəhərinə, anasının tənha qaldığı mənzilə getməyə qoymamışlar. Simuzər Qasımova o gündən bu vaxtadək anası Şamamanın sonrakı taleyi barədə məlumat almadığını, axtarışı ilə bağlı 1994-cü ildə Beynəlxalq Qızıl Xaç Komitəsinə müraciət etdiyini bildirmişdir.

Göstərilənlər Qasımova Şamama Əlibaba qızının Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunmuş Ağdam şəhəri ərazisində girov götürülməsinə və gizlədilməsinə əsas verir.

**Quliyeva (İsmayılova) Ayna Əliş qızı -** 1900-cü ildə Kəlbəcər rayonunun İstibulaq kəndində anadan olmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.


Quliyeva Ayna

Gəlini – Bayramova Firuzə Mehdi qızı Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, Quliyeva (İsmayılova) Ayna 1993-cü ilin aprel ayının 2-də yaşadığı Kəlbəcər rayonunun İstibulaq kəndinin işğalı zamanı nəvəsi Quliyev Yalçın Şahmar oğlu ilə kənddə qalmışdır. Bir neçə gün sonra Yalçın qonşularla birlikdə gəlib çıxmış, Ayna Quliyevadan isə xəbər çıxmamışdır. A.Qulyevanın sağ-salamat kənddə qaldığını bütün kənd camaatı təsdiq edir.

**Quliyev Əkbər Ocaqverdi oğlu -** 1973-cü ildə Kəlbəcər rayonunun Bəzirxana kəndində anadan olmuşdur. 6-7 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu ərazisindəki Meydançay



çayı ətrafında gedən döyüşlər zamanı itkin düşmüşdür.

Döyüş yoldaşları – hazırda Gəncə şəhərində məskunlaşmış Əli Abbasov və Elbəyi Şükürov, hazırda Göygöl rayonu, Xaşadağı kəndində məskunlaşmış Pərviz Şükürov verdikləri ifadədə işğalçı düşmən ordusunun tanklarından açılan atəş nəticəsində Əkbər Quliyevin ayağından yralandığını və ağrıdan bərk qışqırdığını bildirmişlər. Onu atəş altından çıxarmaq məqsədilə Əkbərə tərəf sürünən Elbəyi Şükürov tankların tam yaxınlaşdığını görüb kömək edə bilməmiş, oradan uzaqlaşmışdır. Ərazi işğal olunduqdan sonra onlar ermənilər tərəfindən Əkbər Quliyevin və əsir götürülmüş bir neçə digər şəxsin tanka və hərbi yük maşınına mindirilərək aparıldıgının şahidi olmuşlar. Bu faktı eyni zamanda, qeyd olunan döyüşlərdə iştirak etmiş və Ermənistan Respublikası silahlı birləşmələrinin mühasirəsindən sağ çıxmış, Azərbaycan Respublikası Müdafiə Nazirliyi «N» saylı hərbi hissənin tağım komandiri, hazırda Mingəçevir şəhərində yaşayan Nizami Məhərrəmov da ifadəsində təsdiq etmişdir.

**Quliyev Rizvan Şahverən oğlu -** 1960-cı ildə Azərbaycan Respublikasının Şuşa rayonunda anadan olmuşdur. Şuşa şəhərinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı - 1992-ci il may ayının 9-da itkin düşmüşdür.

İtkinin bacısı - hazırda Binəqədi rayonu, 7-ci mikrorayon, M.F.Axundov adına 4 saylı yataqxanada məskunlaşmış Quliyeva Güllü Şahverən qızı ifadəsində bildirmişdir ki, Şuşa şəhərinin işğalı zamanı ailəsi ilə birlikdə yaşadıqları evin



Quliyev Rizvan

zirzəmisində gizlənən qardaşı Rizvan bayırdakı vəziyyəti öyrənmək üçün zirzəmidən çıxmışdır. Elə həmin an qışqırıq səsi eşidilmiş və o bir daha geri qayıtmamışdır. Bir müddətdən sonra bayıra çıxan ailə üzvləri RİzvanI tapa bilməmiş və gizlincə şəhəri tərk etməyə məcbur olmuşlar.

Şuşanın işğalı zamanı girov götürülmüş Məmmədov İsrafil Həsən oğlu Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki,1992-ci il may ayının 8-də Şuşa şəhərində Ermənistan hərbçiləri tərəfindən tutulmuşdur. Bu vaxt ermənilər öz evinin yaxınlığından girov götürülmüş Rizvan Şahverən oğlunu da ona qoşmuş, Xankəndinə apararaq beşmərtəbəli binanın zirzəmisinə salmışlar. Ertəsi gün Rizvanı ondan ayırıb naməlum istiqamətə aparmışlar. Sonradan Rizvanın taleyi haqqında heç bir məlumatı olmamışdır.

**Qurbanova Cavahir İman qızı -** 1923-cü ildə Kəlbəcər rayonu, Barmaqbinə kəndində doğulmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.



Qızı - hazırda Gəncə şəhəri, Gülüstan qəsəbəsi, Azərbayan Kənd Təsərrüfatı Akademiyasının 6 saylı yataqxanasında məskunlaşmış Qurbanova Gülbahar Məhərrəm qızı Dövlət Komissiyasına verdiyi iza-

hatda bildirmişdir ki, 1993-cü il aprel ayının 2-də Ermənistan Respublikası silahlı qüvvələrinin hücumu ilə əlaqədar yaşadıqları Kəlbəcər rayonunun Barmaqbinə kəndini tərk edərkən anası Qurbanova Cavahir: «Ermənilər Kəlbəcəri işğal edə bilməz» - deyərək onlarla birlikdə çıxmaqdan imtina etmiş, yaşadığı evdə qalmışdır. Gülbahar Qurbanova anasının sonrakı taleyi barədə heç bir məlumat əldə edə bilməmişdir.

**Qurbanov Müşviq Sabir oğlu** - 1970-ci ildə Lənkəran rayonunun Tutapeştə kəndində doğulmuş, 19.07.1993-cü il tarixdə Ağdam rayonunun Şıxbabalı kəndinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.


Qurbanov Müşviq

İtkinin döyüş yoldaşı, hazırda Sumqayıt şəhərində müvəqqəti məskunlaşmış, Ağdam rayon sakini - Nəsirov Barat İsa oğlu ifadəsində bildirmişdir ki, 19 iyul 1993-cü il tarixdə Ağdam rayonunun Şıxbabalı kəndindəki əkin sahəsində Lənkaranlı Qurbanov Müşviq Sabir oğlu və Ağdam rayonundan olan Əliyev Vidadi Cümşüd oğlu, Qurbanov Mehman Allahverdi oğlu ilə birlikdə düşmən ordusunun mühasirəsinə düşmüşlər. Şiddətli döyüşün gedişində Barat Nəsirov adı çəkilən döyüşçülərdən təxminən 20 metr aralıda və nisbətən əlverişli yerdə olduğu üçün mühasirədən çıxa bilmiş, döyüş yoldaşları isə yaralı vəziyyətdə əsir götürülmüşlər. Adı çəkilən Azərbaycan əsgərlərinin, o cümlədən Qurbanov Müşviq Sabir oğlunun sonrakı taleyi barədə məlumatlar Ermənistan tərəfindən gizlədilmişdir.


Mehdiyev Hüseyn

**Mehdiyev Hüseyn Məhəmməd oğlu -** 1905-ci ildə Şuşa şəhərində anadan olmuş, 1992-ci ildə şəhərin Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Oğlu - hazırda Bakı şəhəri, Nərimanov rayonu, İslam Abuşov küçəsi ev №16 ünvanda məskunlaşmış Mehdiyev Vəli Hüseyn oğlu Dövlət Komissiyasına verdiyi izahatda bildirir ki, 8 may 1992-ci ildə Şuşa şəhəri işğal olunarkən atası H.Mehdiyev Şuşa şəhəri. Vəzirov küçəsi, ev 22 saylı ünvandakı evində tək qalmışdır. Qohumu Cavadov Xasay Əzim oğlundan aldığı məlumata görə, Şuşa əhalisi şəhəri tərk edərkən N.Mehdiyevi səsləsələr də o, evdən çıxmamışdır. X.Cavadov N.Mehdiyevi sağ-salamat halda qoyub digər sakinlərlə bərabər ərazini tərk edəndən sonra Ermənistan hərbçiləri həmin evləri tutmuşlar. Hüseyn Mehdiyevin sonrakı taleyi barədə heç bir məlumat əldə edilməmişdir.

**Mehdiyev Məhəmməd Cəlil oğlu -** 1900-cu idə Kəlbəcər rayonunun Armudlu kəndində,

**Mehdiyeva Səriyyə Əziz qızı -** 1912-ci ildə Kəlbəcər rayonu, Alolar kəndində anadan olmuşdur. İxtiyar yaşlı bu ər və arvad 2 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu, Yanşaq kəndinin Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşlər.

Övladları – hazırda Goranboy rayonu, Qaraçinar kəndində məskunlaşmış, 1957-ci il təvəllüdlü Mehdiyev Mehdi Məhəmməd oglu ifadəsində bildirmişdir ki, atası - Mehdiyev Məhəmməd Cəmil oğlu və anası - Mehdiyeva Səriyyə Əziz qızı Kəlbəcər ra-



Mehdiyev Məhəmməd



Mehdiyeva Səriyyə

yonu, Təkdam kəndində yaşamışlar. Ata-anası ilə birlikdə 1993-cü il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin hücumu ilə əlaqədar kənddən çıxıb Murovdağ istiqamətində hərəkət edərkən Yanşaq kəndində mühasirəyə düşmüşlər. Düşmən yaxınlaşdığı üçün qarışıqlıq yaranmış və valideynlərini orada itirmişdir. Özü isə bir neçə həmyerlisi ilə birlikdə mühasirədən çıxaraq Göygöl (İndiki Göy-göl) rayonuna gəlmişdir. M.Mehdiyev ata və anasının mühasirə zamanı ermənilər tərəfindən girov götürülməsi qənaətindədir. Çünki həmin vaxt erməni hərbçiləri onlara çox yaxın məsafədə olmuşlar. Ermənistan hakimiyyət orqanları onların sonrakı taleyi barədə məlumatları gizlətmişlər.

**Mehdiyev Mirzeynal Mirəli oğlu** – 1976-cı ildə Sabirabad rayonunun Qasımbəyli kəndində anadan olmuş, 13 aprel 1996-cı il tarixdə Goranboy rayonu, Tapqaraqoyunlu kəndi istiqamətində itkin düşmüşdür.

2 may 1997-ci il tarixdə erməni əsirliyindən azad edilmiş, 1973-cü il təvəllüdlü Qasımzadə Səlahəddin Pərviz oğlu Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, Goranboy rayonu, Tapqaraqoyunlu kəndi istiqamətində mövqedə keşik çəkərkən bir

neçə dəfə erməni əsgəri ilə komandanlıqdan gizli görüşmüş və onlarla bəzi əşyaları dəyişmişlər. 13 aprel 1993-cü il tarixdə ermənilər uca səslə çağıraraq onları görüşə çağırmışlar. Səlahəddin Qasımzadə və Mirzeynal Mehdiyev mövqeni tərk edərək çayın yanına getmişlər. Burada 2 (iki) erməni əsgəri varmış. Ermənilər onlara paltar gətirdiklərini və konyakla dəyişmək istədiklərini bildirmişlər. Səlahəddin erməni əsgərlərinə konyakın olmadığını, əgər paltarları verəcəkləri təqdirdə konyakı gətirəcəyini bildirmişdir. Lakin bu təkliflə erməni əsgərlər razılaşmamış və naməlum istiqamətdən qəflətən atəş açmışlar. Atəş nəticəsində Mirzeynal Mehdiyev qarın nahiyyəsini tutaraq yerə yıxılmışdır. Qaçmaq istəyən Səlahəddini isə erməni əsgərləri tutaraq yerə yıxmış və döyərək mövqelərinə doğru aparmışlar. Səlahəddin Qasımzadə bir ildən artıq erməni əsirliyində saxlanılsa da sonradan Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə azad edilmiş, lakin Mirzeynal Mehdiyevin sonrakı taleyi barədə məlumatı olmamışdır.



*Mehdiyev Mirzeynal*

Qeyd olunanlar Mirzeynal Mehdiyevin yaralı vəziyyətdə Ermənistan hərbçiləri tərəfindən əsir götürülməsinə və beynəlxalq təşkilatlardan gizlədilməsinə böyük ehtimal yaradır.

**Məhərrəmova Kubra Şahmar qızı -** 1929-cu ildə Kəlbəcər rayonu, Qamışlı kəndində anadan olmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Qonşusu - hazırda Göygöl rayonu, Çaykənd kəndində məskunlaşmış Salahov Bəşir Cavanşir oğlu Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, 1993-cü ildə Kəlbəcər rayonu işğal

olunan zaman Məhərrəmov Qurban Süleyman oğlu həmkəndliləri - Bayramov Cavanşir Salah oğlu, Bayramova Xurma Əhməd qızı, Məhərrəmova Kübra Şahmar qızı, Bayramova Yəmən Hüseyn qızı, Məmmədov Qələndər Dadaş oğlu ilə birlikdə yaşadıqları Sarıdağ kəndində sağ-salamat qalmışdır.


Məhərrəmova Kubra

Bu şəxslərin sonrakı taleyi barədə məlumat əldə etmək mümkün olmamışdır.

**Məhərrəmov Qurban Süleyman oğlu -** 1918-ci ildə Kəlbəcər rayonu, Alçalı kəndində anadan olmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.


Məhərrəmov Qurban

Qonşusu - hazırda Göygöl rayonu, Çaykənd kəndində məskunlaşmış Salahov Bəşir Cavanşir oğlu Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, 1993-cü ildə Kəlbəcər rayonu işğal olunan zaman Məhərrəmov Qurban Süleyman oğlu həmkəndliləri - Bayramov Cavanşir Salah oğlu, Bayramova Xurma Əhməd qızı, Məhərrəmova Kübra Şahmar qızı, Bayramova Yəmən Hüseyn qızı, Məmmədov Qələndər Dadaş oğlu ilə birlikdə yaşadıqları Sarıdağ kəndində sağ-salamat qalmışlar.

Bu şəxslərin sonrakı taleyi barədə məlumat əldə etmək mümkün olmamışdır.



**Məmmədov Əli Kamran oğlu -** 1974-cü ildə Kəlbəcər rayonu, Zallar kəndində anadan olmuşdur. Kəlbəcər rayon Hərbi Komissarlığı tərəfindən 1992-ci ilin iyul ayında hərbi xidmətə çağırılmışdır.

6-7 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu ərazisindəki Meydançay çayı ətrafında gedən döyüşlər zamanı itkin düşmüşdür.

Qeyd olunan döyüşlərdə iştirak etmiş və Ermənistan Respublikası silahlı birləşmələrinin mühasirəsindən sağ çıxmış, Azərbaycan Respublikası Müdafiə Nazirliyi N saylı hərbi hissəsinin tağım komandiri Nizami Məhərrəmov ifadəsində adı çəkilən döyüşlərdə Ermənistan hərbçiləri tərəfindən bir neçə Azərbaycan əsgərinin əsir götürülərək aparıldığını və onların arasında Kəlbəcər rayonunun Zallar kənd sakini, Zəylik sərhəd postunun əsgəri Əli Məmmədovun da olduğunu bildirmişdir. Onun sonrakı taleyi barədə məlumat almaq mümkün olmamışdır.



*Məmmədov Fəyyaz*

**Məmmədov Fəyyaz Əhliman oğlu -** 1974-cü ildə Yevlax şəhərində doğulmuşdur. 9 yanvar 1994-cü il tarixdə Ağdərə rayonunun Akop-Komari kəndi uğrunda gedən döyüşlərdə itkin düşmüşdür.

Ağdərə rayonu, Sırxavənd kənd sakini, hazırda Bərdə rayonu, Divanlı kəndində məskunlaşmış Əliyev Sevindik Həbib oğlu ifadəsində bildirmişdir ki, 1994-cü ildə

Ağdərə rayonu ərazisində gedən döyüşlərdə şəhid olmuş oğlunun meyidini ermənilərdən alarkən cəbhə xəttində keçmiş erməni tanışı - Ağdərə rayonu, Kiran kənd sakini, rabitə bölüyünün komandiri olmuş Serjik Minasyan ona ermənilər tərəfindən çox sayda azərbaycanlı əsir-girovun saxlandığını və onların arasında Yevlaxdan Məmmədov Fəyyaz Əhliman oğlunun da olduğunu söyləmişdir. Ermənistan hakimiyyət orqanları onun sonrakı taleyi barədə məlumatları gizlətmişlər.



**Məmmədova Gülsüm Ağa qızı -** 1915-ci ildə Kəlbəcər rayonunun Zar kəndində anadan olmuş və orada yaşamışdır. 2 aprel 1993-cü il tarixdə Ermənistan silahlı birləşmələri tərəfindən həmin kəndin işğalı zamanı itkin düşmüşdür.

İtkinin övladı, 29 iyul 1994-cü il tarixdə erməni girovluğundan azad edilmiş, hazırda Yevlax rayonunun Meyvəli kəndində məskunlaşmış - Şahverdiyeva Sərfinaz Məhərrəm qızı ifadəsində bildirmişdir ki, 1993-cü il aprelin 2-3-də yaşadıqları Kəlbəcər rayonu, Zar kəndi erməni işğalına məruz qaldığı zaman o, anası Gülsüm və bir neçə kənd sakini ilə birlikdə evlərini tərk edərək Murovdağ istiqamətinə hərəkət etmişlər. Qaracanlı kəndinə çatarkən dumanlı havada Sərfinaz anası Gülsümü itirmiş, özü isə aprelin 5-6-da Meydançay deyilən yerdə erməni silahlıları tərəfindən girov götürülmüşdür. Sərfinaz Şahverdiyeva anasının da ermənilər tərəfindən girov götürüldüyünə şübhə etmir.



**Məmmədov Həsənxan Dünyamalı oğlu** -1914-cü ildə Qubadlı rayonunun Qaracallı kəndində anadan olmuşdur.

**Məmmədova Xeyrənsə Məhərrəm qızı** -1929-cu ildə Qubadlı rayonunun Padar kəndində anadan olmuşdur.

Bu ixtiyar, ər və arvad Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Qubadlı rayonunun işğalı zamanı – 30.08.1993-cü il tarixdə itkin düşmüşlər.

İtkin düşmüş qocaların övladı, hazırda Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Krılov küçəsi, ev 22 ünvanda məskunlaşmış Məmmədova Ceyran Həsənxan qızı ifadəsində bildirmişdir ki, 1993-cü il avqustun 29-da o, ata və anası ilə birlikdə yaşadıqları Qaracallı kəndini tərk etmək məcburiyyətində qalaraq qonşu Xanlıq kəndinə gəlmiş və bir gecə tanışları - sürücü Vaqifin evində qalmışlar. Növbəti gün tezdən o, yaxınlıqda yerləşən Padar kəndinə getmiş, orada yaşayan dayısı Məhəmməd kişidən onunla birlikdə Qaracallıya getməyi xahiş etmişdir. Dayısı Məhəmməd qocalığını əsas gətirərək onunla getməkdən imtina etmiş, bu səbəbdən Ceyran Qaracallı kəndinə - evlərinə qayıtmaq qərarına gəlmişdir. Balasoltanlı kəndinə çatarkən hərbiçilər Qaracallı kəndinin artıq ermənilər tərəfindən işğal edildiyini bildirmiş və onu saxlayaraq özləri ilə Qubadlı qəsəbəsinə gətirmişlər. Oradan avtobusla Xanlıq kəndinə qayıdan Ceyran Məmmədovanı kəndin girəcəyində avqustun 30-u, saat 17-18 radələrində hərbçilər yenidən saxlamış və valideynlərinin qaldığı ərazinin artıq ermənilər tərəfindən işğal edildiyini bildirərək onu döyüş ərazisindən çıxarmışlar. O vaxtdan valideynlərinin taleyindən xəbəri olmamışdır.

C.Məmmədovanın bıdirdiyinə görə, sonradan yuxarıda adı çəkilən Qubadlı rayonu, Xanlıqlar kənd sakini, sürücü Vaqif (soyadı və atasının adını xatırlamır) söhbət zamanı söyləmişdir ki, 1993-cü ilin avqust ayının 30-da Ermənistan hərbçiləri kəndi işğal edərkən o, Ceyranın valideynlərinə idarə etdiyi maşına minib birlikdə getməyi israrla xahiş etsə də, onlar kənddə qalmağı və qızlarını gözləməyi qərara almışlar.

Beləliklə, bu yaşlı ər və arvad Ermənistan hərbçiləri tərəfindən işğal olunmuş ərazidə qalmış və sonrakı taleləri gizlədilmişdir.



**Məmmədov İsrail Teymur oğlu -** 1963-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1991-ci ilin noyabr ayında birinci könüllülər taboruna yazılmış və dekabr ayının 12-də Şuşa şəhərinin müdafiəsi uğrunda gedən döyüşlərə yollanmışdır. Həmin ayın 28-də Xankəndinin Kərkicahan qəsəbəsi ətrafındakı döyüşlərdə İsrail Məmmədovun da olduğu tağım erməni hərbçilərinə və keçmiş Rus Ordusunun ərazidə yerləşmiş 366-cı alayının əsgərlərinə qarşı 6 saat müqavimət göstərmişdir. Qeyr-barəbər döyüşdə tağım əsgərlərinin əksəriyyəti şəhid olmuş, silah və sursatları bitdiyi üçün tam mühasirəyə alınmış 9 döyüşçü əsir alınaraq Xankəndində yerləşmiş təcridxanaya aparılmışdır. Döyüş zamanı çiynindən yaralanmış İsrail Məmmədovu və döyüş yoldaşlarını tək-tək kameralara salmış, dözülməz işgəncələr vermiş, ac-susuz, ayaqyalın, soyuq və qaranlıq şəraitdə saxlamışlar.

Bu faktı Məmmədov İsrail Teymur oğlunun erməni əsirliyindən azad olunmuş döyüş yoldaşları - Əhmədov Aydın

İbrahim oğlu, Məhərrəmov Pənah Şahmar oğlu, Fərhadov Fərhad Mirnaib oğlu, İsmayılov Arif Əziz oğlu, Məmmədov Əbdüləzim Məcnun oğlu və Hüseynov Mehman Bəhram oğlu təsdiq edir. Sonradan onlar azad olunsa da İsrail barədə məlumatları olmamışdır.

«Azadlıq» qəzetinin 31 yanvar 1992-ci il tarixli sayında dərc olunmuş «Döyüşən şəhər» başlıqlı yazıda Moskvadan gəlmiş müşahidəçi Qalina Yakovlevnanın 6 yanvar 1992-ci il tarixdə Xankəndində Kərkicahan uğrunda getmiş döyüşdə əsir düşmüş 9 hərbiçi, o cümlədən, İsraillə görüşdüyü bildirilmişdir. Buna baxmayaraq, Ermənistanın hakimiyyət orqanları İsrail Məmmədovun sonrakı taleyi barədə məlumatları gizlətmişlər.



**Məmmədov Qələndər Dadaş oğlu -** 1935-ci ildə Kəlbəcər rayonu, Sarıdağ Kəndində anadan olmuşdur. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Qonşusu - hazırda Göygöl rayonu, Çaykənd kəndində məskunlaşmış Salahov Bəşir Cavanşir oğlu Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, 1993-cü ildə Kəlbəcər rayonu işğal olunan zaman Məmmədov Qələndər Dadaş oğlu həmkəndliləri - Məhərrəmov Qurban Süleyman oğlu, Bayramov Cavanşir Salah oğlu, Bayramova Xurma Əhməd qızı, Məhərrəmova Kubra Şahmar qızı, Bayramova Yəmən Hüseyn qızı, ilə birlikdə yaşadıqları kənddə sağ-salamat qalmışdır.

Bu şəxslərin sonrakı taleyi barədə heç bir məlumat əldə edilməmişdir.



Məmmədov Vidadi

**Məmmədov Vidadi Musa oğlu** - 1960-cı ildə Yevlax rayonunun 1-ci Salamabad kəndində anadan olmuşdur. 26.04.1994-cü il tarixdə Füzuli rayonu, Seyidəhmədli kəndi uğrunda gedən döyüşlər zamanı itkin düşmüşdür.

Həmin tarixdə itkin düşmüş Tahirov Rəhim Əvəz oğlunun qardaşı - Tahirov Ramiz Əvəz oğlu Dövlət Komissiyasına verdiyi ifadədə Rəhimin əslən Mingəçevirdən olan döyüş yoldaşları - **Məmmədov Vidadi Musa oğlu**, Alıyev Çingiz Həmid oğlu, Həşimov Elbrus Çərkəz oğlu, Hüseynov Adil Əlihüseyn oğlu və Qafarov Nəriman Qafar oğlu ilə birlikdə 26.04.1994-cü il tarixdə gedən döyüşlərdə itkin düşdüyünü bildirmişdir. İfadədə göstərilir ki, qardaşının sağ qalmış döyüş yoldaşları Həsən, Ələs və adını xatırlamadığı digər əsgərin sözlərinə görə, 1994-cü il aprelin 26-da Füzuli rayonunun Seyidəhmədli kəndində axşamüstü onların yerləşdiyi səngərə azərbaycan dilində danışan erməni hərbçiləri qəflətən hücum etmiş, qeyri-barəbər döyüşdə qardaşı və digər döyüş yoldaşlarını, eyni zamanda, Məmmmədov Vidadi Musa oğlunu müxtəlif yerlərindən yaralı vəziyyətdə əsir götürmüşlər.

Araşdırma zamanı müəyyənləşdirilmiş həyat yoldaşı Məmmədova Hicran Məhi qızının ifadəsində Məmmədov Vidadi Musa oğlunun 16.03.1994-cü il tarixdə səfərbərliklə əlaqədar Mingəçevir şəhər hərbi komissarlığı tərəfindən orduya çağrıldığı, «N» saylı hərbi hissənin tərkibində xidmət etdiyi, 26.04.1994-cü il tarixdə Füzuli rayonu ərazisində işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı döyüşlərdə yaralı vəziyyətdə itkin düşdüyü göstərilmişdir.

Həmçinin müəyyən edilmişdir ki, əsir götürüldükdən sonra ağır işgəncələr nəticəsində qətlə yetirilmiş Çingiz Əliyev, Elbrus Həşimov, Adil Hüseynov və Nəriman Qafarovun meyitləri 25 may

1994-cü il tarixdə, yəni bir aydan sonra Azərbaycan tərəfinə qaytarılmış və doğulduqları rayonlarda dəfn edilmişlər.

Döyüş yoldaşları, Mingəçevir şəhər sakinləri- Heydərov Həsən Yəhya oğlu və Əliyev Yaqub Çərkəz oğlu ifadələrində 26.04.1994-cü il tarixdə Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşdə Rəhim Tahirov və digər döyüşçülərin Ermənistan hərbçiləri tərəfindən əsir götürüldüyünü təsdiq etmişlər.

Yuxarıda qeyd olunanlar və döyüş yoldaşlarının işgəncələrlə öldürülərək, bir ay sonra meyitlərinin Azərbaycan tərəfə qaytarılması barədə məlumatlar Məmmədov Vidadi Musa oğlunun əsirlikdə saxlanmasını və beynəlxalq təşkilatlardan gizlədilməsini təsdiq edir.


*Məmmədova Zeynəb*

**Məmmədova Zeynəb Hüseyn qızı -** 1910-cu ildə Kəlbəcər rayonu, Zar kəndində anadan olmuşdur. 23 iyun 1993-cü il tarixdə Ağdam rayonu, Boyəhmədli kəndinin Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

İtkinin qızı - hazırda Mingəçevir şəhərində müvəqqəti məskunlaşmış, Ağdam rayonundan məcburi köçkün Füzuliyeva Roza Əli qızı ifadəsində bildirmişdir ki, o, Ermənistan silahlı qüvvələrinin aramsız atəşi nəticəsində qəlpə yarası almış kiçik yaşlı oğlunun müalicəsi ilə əlaqədar kəndi on gün əvvəl tərk etmişdir. Bundan xəbərsiz olan anası Zeynəb işğal günü onu axtarmaq üçün kəndin ortasına doğru hərəkət etmişdir. Kənddən məcburi çıxan qonşularının işğal barədə xəbərdarlığına baxmayaraq, Zeynəb Məmmədova geri qayıtmamış, çox güman ki, ermənilər tərəfindən girov götürülmüşdür.

Onun işğal olunmuş əraziyə doğru getməsi faktını qonşuları - hazırda Mingəçevir şəhərində məskunlaşmış Hüseynova Elmira Şəfayət qızı və Füzuliyev Vilayət Kamran oğlu öz ifadələri ilə təsdiq etmişlər. Erməni hərbçiləri Zeynəb Məmmədovanın sonrakı taleyi barədə məlumat verməmişlər.



**Məmişov Taleh Ələsgər oğlu** – 1985-ci ildə Kəlbəcər rayonu, Kilsəli kəndində anadan olmuş və həmin rayonun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı, 31 mart 1993-cü il tarixdə «Tunel» deyilən ərazidə itkin düşmüşdür.

Göstərilən tarixdə girov götürülmüş və 15 sentyabr 1994-cü il tarixdə azad olunmuş, hazırda Gəncə şəhəri, 4-cü mikrorayon 18 saylı uşaq bağçasında müvəqqəti məskunlaşmış, Kəlbəcər rayonu, Kilsəli kənd sakini Məmişova İmarət Məmmədəli qızı Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, 31 mart 1993-cü il tarixdə Ermənistan Respublikası silahlı birləşmələrinin Kəlbəcər rayonu ərazisinə intensiv hücumları zamanı rayonun digər sakinləri kimi, onların yaşadığı kəndin əhalisi də doğma yurdlarını tərk edərək qaçmaq məcburiyyətində qalmışlar. Bir neçə ailənin yığışdığı QAZ-52 markalı yük maşını rayonun «tunel» adlanan ərazisinə çatarkən silahsız, dinc əhali müxtəlif istiqamətlərdən atəşə tutulmuşdur. Nəticədə maşında olan 20-25 nəfərdən 4-ü yerindəcə öldürülmüş, digər hissəsi isə ağır yaralanmışdır. Bu zaman iki övladı ilə birlikdə olan İmarət Məmişova da başından, ayağından, boynundan və əlindən yaralanmış və huşunu itirmişdir. Özünə gələrkən İmarət Məmişovanı erməni hərbçilər maşına mindirib Ağdərə rayonunun Drmbon kəndində xəstəxana kimi istifadə

etdikləri evə aparmışlar. Məmişova oğlunu son dəfə göstərilən yerdə stolun üzərində uzanmış vəziyyətdə gördüyünü və halzıslıqdan danışa bilmədiyi üçün erməni hərbçilərinə uşağın onun oğlu olduğunu söyləyə bilmədiyini xatırlayır. İ.Məmişova Hadisə zamanı onunla birlikdə olmuş digər oğlu 1982-ci il təvəllüdlü Yadigar Məmişovu Ermənistan silahlı birləşmələrinin işğalında olan Xankəndi şəhərində tapmışdır. Yadigar anasına qardaşı Talehin hadisə zamanı yaralı vəziyyətdə yerdə qaldığını və ondan su istədiyini bildirmiş, lakin erməni hərbçisinin su gətirməyə icazə vermədiyni söyləmişdir.

Hadisə zamanı girov götürülmüş və uzun müddət girovluqda saxlanıldıqdan sonra Dövlət Komissiyasının səyləri nəticəsində azad olunmuş – Məhəmməd Quliyev, onun uşaqları Cəmilə, Fərman, Bəxtiyar, İlhamə və Validə Quliyevlər, o cümlədən Quliyev Qoşqar Binnət oğlu və Quliyeva Gülcamal Binnət qızı da Taleh Məmişovun yaralı olduğunu və naməlum istiqamətə aparıldığını bildirmişlər.



**Mirzəyeva Məleykə Məşədiyusif qızı** – 1920-ci ildə Ağdam şəhərində anadan olmuş, Ağdam şəhərinin Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı – 23 iyul 1993-cü il tarixdə itkin düşmüşdür.

Qızı – hazırda Bərdə şəhərində yerləşən texniki peşə məktəbi, ev 47 ünvanda müvəqqəti məskunlaşmış Abdullayeva Gülnaz Xankişi qızı Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, Ermənistan silahlı qüvvələrinin Ağdam şəhərinə hücumu zamanı o, anasına müraciət edərək təcili şəhəri tərk etmələrinin zəruri olduğunu, əks təqdirdə girov götürüləcəklərini bildirmişdir.

Lakin anası – Məleykə Mirzəyeva «ölsə də», doğma evinin tərk etməyəcəyini bildirmiş və Ağdam şəhəri, C.Cabbarlı küç., döngə 3, ev 19 ünvanda yerləşən evlərində qalmışdır. Anasının təkidlə evdə qlacağını görən Gülnaz 3 qızı ilə birlikdə evlərini tərk edərək Bərdə şəhərinə gəlmişdir. Anası isə sağ-salamat evlərində qalmışdır. Sonrakı taleyi barədə məlumatlar ermənilər tərəfindən gizlədilmişdir.



**Mustafayev Aydın Şərif oğlu -** 1926-cı ildə,
**Mustafayev Əliqulu Aydın oğlu -** 1961-ci ildə,
**Mustafayeva Xanım Əmrah qızı -** 1932-ci ildə,
**Mustafayeva (Şərifova) Münəvvər Aydın qızı -** 1952-ci ildə Laçın rayonu Mollalar kəndində anadan olmuşlar və orada yaşamışlar. Ailə başçısı Aydın Mustafayev ikinci dünya müharibəsinin iştirakçısı, əlil olmuşdur.

Mustafayevlərin qızı – hazırda Sumqayıt şəhərində müvəqqəti məskunlaşmış, Dilarə Mustafayeva ifadəsində bildirmişdir ki, 14-16 may 1992-ci il tarixdə atası onu digər bacıları ilə birlikdə xalası oğlunun maşınında Bərdə rayonuna göndərmişdir. Təxminən 4 gündən sonra atası da Bərdə rayonuna gəlmiş yaşadıqları kənddə qalmış ailə üzvlərini və ev əşyalarını çıxarmaq üçün maşın sifariş edib geri qayıtmışdır. Lakin artıq Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu üçün Azərbaycan hərbçiləri Aydın Mustafayevi ora buraxmamışlar. Ancaq o, bu halla razılaşmaq istəməmiş və nəyin bahasına olursa-olsun ailəsini işğal olunmuş ərazidən çıxarmaq üçün oraya getmək qərarına gəlmişdir. 28 may 1992-ci il tarixdə Aydın Mustafayev qızı Xuramanın həyat

yoldaşı Vəliyev Bəxtiyar Səfiyar oğlu ilə birlikdə piyada Kəlbəcər rayonu ərazisindən keçərək yaşadıqları Mollalar kəndinə doğru getmişlər. Yol boyu ermənilərin yaşayış məntəqələrini qarət edib maşınlarla Ermənistana apardıqlarının, evləri və digər binaları isə yandırdıqlarının şahidi olmuşlar. Ermənilərin əlinə keçəcəklərindən ehtiyat etdikləri üçün onlar meşə ilə gecələr yollarına davam etmişlər. Meşəni keçib kəndə girən Aydın kişi və Bəxtiyar artıq binaların yandığının şahidi olmuşlar. Bu vaxt artıq öz evlərinin də yandığını görən Aydın kişi: «Evimiz yanır!!!....» - deyə qeyri-ixtiyari olaraq qışqırmışdır. Elə o anda onlar bir az qabaqda evlərdən qarət olunmuş əşyalarla dolu «Kamaz» markalı maşını və yanında 4 erməni hərbçisinin dayandığını görmüşlər. Ermənilər onları azərbaycan dilində çağırmış, Aydın kişi Bəxtiyara qaçmağı işarə etmiş, özü isə qışqıra-qışqıra ermənilərin üzərinə getmişdir. Ermənilərin əlinə düşməmək üçün Bəxtiyar enişə doğru qaçmışdır. Ermənilərdən biri atəş aça-aça Bəxtiyara doğru gəlmiş. lakin o, sıx böyürtkən kollarının arasında gizlənmiş, çox güman ki, artıq onu görməyən erməni axtarmağa başlamışdır. Bu vaxt güclü leysan yağmış, erməni oradan uzaqlaşmağa məcbur olmuşdur. Qarətçi hərbçilər Aydın Mustafayevi döyə-döyə maşına mindirmiş və təxminən iyirmi dəqiqədən sonra kəndi tərk etmişlər. Ətrafda sakitliyin olduğunu görən Bəxtiyar gizləndiyi yerdən çıxıb qəbristanlığa doğru getmiş və oradan bir müddət kəndi müşahidə etmişdir. Artıq kənddə heç kimin olmadığını yəqin etdiyi üçün qaynatasının – yəni Aydın kişigilin evinə gəlmişdir. Divarlarda güllə yerinin və ətrafa səpələnmiş boş gilizlərin şahidi olan Bəxtiyar evdəki əşyalardan bəzilərinin hələlik tam yanmadığını görmüşdür. O, evin içərisini və ətrafı diqqətlə axtarsa da meyitlərə və meyit qalıqlarına rast gəlməmişdir. Məlum olmuşdur ki, ermənilər Xanım, Münəvvər və Əliqulu Mustafayevləri də girov götürmüş və sağ-salamat özləri ilə aparmışlar. Buna artıq əmin olsa da kəndi və ətrafdakı meşələri axtarmış, digər kəndləri kənardan müşahidə etmiş, on

günlük axtarışdan sonra onların girov götürüldüyünə tam inanmışdır. Müşahidələri zamanı ermənilərin gündüzlər kəndləri qarət edib yandırdıqlarının, gecələr isə orada qalmadıqlarının şahidi olmuşdur. Buna görə də Bəxtiyar gündüzlər meşələrdə gizlənib gecələr isə kəndlərdə qalırmış. Bu minvalla ay yarım yol gəldikdən sonra həmin dövrdə hələlik işğal olunmamış Kəlbəcər rayonu ərazisinə çatmışdır. Beləliklə, Laçın rayonunun işğalı zamanı həmin rayonun Mollalar kənd sakini olmuş bütöv bir ailə – Mustafayev Aydın Şərif oğlu, onun həyat yoldaşı Mustafayeva Xanım Əmrah qızı, övladları - Mustafayeva (Şərifova) Münəvvər Aydın qızı və Mustafayev Əliqulu Aydın oğlu Ermənistan hərbçiləri tərəfindən girov götürülərək naməlum istiqamətə aparılmış və taleləri barədə bu günə kimi məlumat verilməmişdir. Qeyd olunan faktı hazırda Sumqayıt şəhərində məskunlaşmış Bəxtiyar Vəliyev də öz ifadəsində təsdiq etmişdir.



**Mustafayeva Salatın Ələkbər qızı -** 1900-cü ildə Kəlbəcər rayonu, Daşbulaq kəndində doğulmuşdur. 1991-ci ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Oğlu - hazırda Göygöl rayonu, Balçılı kəndində məskunlaşmış Məmmədov Cəmil Fərhad oğlu Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, 2 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu işğal edilərkən anası S.Mustafayeva yaşadıqları Daşbulaq kəndini tərk etməmiş, evdə qalmışdır. Ermənilər həmin ərazini işğal etdiklərindən S.Mustafayevanın sonrakı taleyi barədə məlumat əldə edilməmişdir.


Mustafayev Vidadi

**Mustafayev Vidadi Şəfa oğlu -** 1963-cü ildə Azərbaycan Respublikasının Xankəndi şəhərində anadan olmuşdur. 1992-ci ildə Xocalı şəhərinin işğalı zamanı girov götürülmüşdür.

İtkinin həyat yoldaşı – hazırda Gəncə şəhərindəki Kənd Təsərrüfatı texnikumunun yataqxanasında məskunlaşmış Hacıyeva Rahilə Rəşid qızı ifadəsində bildirmişdir ki, fevral ayının 25-dən 26-na keçən gecə həyat yoldaşı onlara evdən çıxmamağı tapşırmış və şəhərin müdafiəsinə getmişdir. İşğal zamanı R.Hacıyeva digər ailə üzvləri ilə birlikdə girov götürülüb Əsgəran rayonuna aparılmış, ərini orada yaralı halda görmüşdür. Vidadi Əsgəran rayon polis şöbəsinin zirzəmisində saxlanılırmış. Xankəndinin Şüşükənd kənd sakini olan Aşot adlı bir erməni ona Vidadinin öldürüldüyünü demişdir. Başqa bir məlumata görə, isə onun başını erməni qəbri üzərində kəsmişlər. Lakin meyidini görən olmamışdır.

İtkinin bacısı - Mustafayeva Rahilə Şəfa qızı izahatında göstərir ki, Əsgəran rayon polis şöbəsində girov saxlanılarkən qardaşı Vidadinin də orada yaralı vəziyyətdə saxlanıldığını öyrənmişdir. Lakin onun sonrakı taleyindən xəbəri olmamışdır.

Keçmiş girov, hazırda Gəncə şəhəri İnşaat Texnikumunun binasında müvəqqəti məskunlaşmış Xocalı şəhər sakini Məmmədov Zülfü İbrahim oğlu Xocalının işğalı zamanı girov götürüldüyünü və Əsgəran rayon polis şöbəsindəki kamerada Vidadi Mustafayevin də onunla birlikdə saxlandığını qeyd etmişdir. Ermənistan hakimiyyət dairələri V.Mustafayevin sonrakı taleyini gizlətmişdir.

**Nəbiyev Elxan Əmirşah oğlu** - 1967-ci ildə Bakı şəhərində doğulmuş, 19 yanvar 1994-cü il tarixdə Füzuli rayonunun



Nəbiyev Elxan

Yuxarı Seyidəhmədli kəndinin müdafiəsi zamanı itkin düşmüşdür.

Yaxın qohumu - Habil Xəlilov döyüş yoldaşı (Elxan Nəbiyevin) olmuş Həsənbalayev Vaqif Nemət oğluna istinadən Elxan Nəbiyevin 19 yanvar 1994-cü il tarixdə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndinin müdafiəsi zamanı yaralı vəziyyətdə əsir götürüldüyünü bildirmişdir.

Araşdırma zamanı müəyyənləşdirilmiş Vaqif Həsənbalayev göstərilən faktı təsdiq etmiş və əlavə olaraq bildirmişdir ki, 1994-cü ilin yanvar ayının 19-da komandanlıq tərəfindən verilmiş əmrə əsasən bir neçə döyüş yoldaşları ilə birlikdə tankla Seyidəhmədli kəndinə tərəf irəliləyərkən, yolda minaya düşmüşlər, partlayış nəticəsində əsgərlər müxtəlif dərəcələrdə xəsarətlər almışlar. Bu vaxt o, Elxanı yolun kənarında qıvrılmış halda görmüşdür. Yaralı vəziyyətdə əsgər yoldaşları tərəfindən xilas edildiyi üçün onun sonrakı taleyindən xəbəri olmamışdır. Növbəti gün döyüş yerinə kəşfiyyat dəstəsi göndərilsə də, itkin əsgərlərin sonrakı taleyi barədə məlumat əldə etmək mümkün olmamışdır. Onun qeyd etdiyinə görə döyüşdən sonra hadisə yerinə eyni zamanda Elxan Nəbiyevin qardaşı Eldar Nəbiyev yaxın qohumu ilə birlikdə tankın vurulduğu ərazidə axtarış aparsa da, qardaşı Elxanın meyidini tapa bilməmişdir.

Hadisənin digər şahidi - İbrahimov Kəmaləddin İbadəddin oğlu Dövlət Komissiyasına verdiyi ifadədə bildirmişdir ki, partlayış vaxtı tankın üstündə Elxan Nəbiyevdən başqa onun qardaşı Cəmaləddin İbrahimov, Mübariz Sadıqov, Akif Cabbarov, Əyyar Əliyev də olmuşdur. Daha bir neçə əsgər isə tankın arxasında getmiş «BMP» tipli zirehli maşında olmuşlar. Hadisə günü, o qardaşı Camaləddinin təkidi ilə onlarla birlikdə döyüşə

getməmiş, arxa cinahda qalmışdır. 1994-cü il yanvarın 19-da axşamüstü saat 18 radələrində tankın minaya düşməsi xəbəri alınmış və K.İbrahimov dərhal əsgər yoldaşları ilə birlikdə yaralıların xilas edilməsi işinə başlamış, oradan 10-12 yaralı əsgər çıxara bilmişlər. Döyüş yerində onlar tankın yandığını görmüş, lakin havanın qaralması səbəbindən ona yaxınlaşa bilməmişlər. Səhəri günü onlar erməni hərbçilərinin tankı apardıqlarını müşahidə etmişlər. Növbəti gün döyüş yerinə kəşfiyyat dəstəsi göndərilsə də, itkin əsgərlərin sonrakı taleyi barədə məlumat əldə etmək mümkün olmamışdır.

Yuxarıda qeyd olunanlar Nəbiyev Elxan Əmirşah oğlunun Ermənistan hərbçiləri tərəfindən əsir götürlməsini və beynəlxalq təşkilatlardan gizlədilməsini təsdiq edir.



**Nəbiyeva Hamayıl Məmməd qızı** - 1941-ci ildə,

**Nəbiyeva Mələk Məmməd qızı** - 1942-ci ildə Kəlbəcər rayonu, Otaqlı kəndində anadan olmuşlar. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşlər.

Yaxın qohumları - hazırda Gəncə şəhəri, Nizami rayonundakı 4 saylı internat məktəbində məskunlaşmış Nəbiyeva Fatma Məhərrəm qızı Dövlət Komissiyasına verdiyi izahatında bildirmişdir ki, 1993-cü il aprelin 2-də Kəlbəcər rayonunun Dağqılınclı kəndi işğal olunan zaman əmisi qızı **Hamayıl Nəbiyeva**: «Biz heç bir yerə getməyəcəyik, ölsək də bu kənddə öləcəyik» - deyərək uşaqları aparmağı tapşırmış, özü isə bacısı **Mələk Nəbiyeva** ilə birlikdə yaşadıqları evdə qalmışdır.

Sonradan rayonun işğalı ilə əlaqədar yollar bağlandığın-

dan kəndə qayıtmaq mümkün olmamış və onların taleyi haqqında heç bir məlumat əldə edilməmişdir.

**Nəcəfov Fazil Səfyar oğlu -** 1974-cü ildə Kəlbəcər rayonunun Vəng (Hacıdünyamalılar) kəndində anadan olmuşdur. 6-7 aprel 1993-cü il tarixdə Kəlbəcər rayonu ərazisindəki Meydançay çayı ətrafında gedən döyüşlər zamanı itkin düşmüşdür.



*Nəcəfov Fazil*

İtkinin döyüş yoldaşı, düşmən mühasirəsindən sağ çıxmış, hazırda Gəncə şəhərində məskunlaşmış - Bağırov Çingiz Əmralı oğlu ifadəsində bildirmişdir ki, Fazil Nəcəfov bir neçə döyüşçü ilə birlikdə sağ-salamat mühasirədə qalmışdır. Ərazi işğal olunduqdan sonra mühasirədən çıgöygöl ermənilər tərəfindən Fazil Nəcəfovun və əsir götürülmüş bir neçə digər şəxsin tanka və hərbi yük maşınına mindirilərək aparıldığının şahidi olmuşlar. Bu faktı eyni zamanda, qeyd olunan döyüşlərdə iştirak etmiş və Ermənistan Respublikası silahlı birləşmələrinin mühasirəsindən sağ çıxmış, Azərbaycan Respublikası Müdafiə Nazirliyi N saylı hərbi hissəsinin tağım komandiri, hazırda Mingəçevir şəhərində yaşayan Nizami Məhərrəmov da ifadəsində təsdiq etmişdir.

**Nuriyev Atamoğlan Baba oğlu** - 1967- ci ildə Neftçala rayonunun Oryad kəndində anadan olmuşdur. 23 mart 1993- cü il trixdə Ağdam rayonunun Qalayçılar kəndi uğrunda gedən döyüşlər zamanı itkin düşmüşdür.

1985-1989-cu illərdə Ukraynanın Xarkov şəhərində yerləşən ali tank komandirləri məktəbində Atamoğlan Nuriyevlə birlikdə təhsil almış, yaxın dostu İlqar Əliyev ifadəsində bildir-

mişdir ki, o Atamoğlanın yaralı vəziyyətdə düşmən mühasirəsində qaldığı xəbərini eşidən günü, dostunu xilas etmək üçün adlarını unutduğu iki hərbçi ilə Ağdam rayonunun Qalayçılar kəndinə getmişdir. Burada söhbət zamanı döyüşçülər söyləmişlər ki, Atamoğlan döyüş zamanı 2 saat ərzində düşmənin nəzarət etdiyi sahədə qalmış, üstündə olan «ratsiya» ilə yaralandığını bildirmiş və kömək istəmişdir. Bir qrup döyüş yoldaşı mühasirəni yararaq onun yaralanıb qaldığı yeri axtarmış, lakin orada qan və ayaq izlərinə rast gəlsələr də Atamoğlan Nuriyevi görməmişlər.


*Nuriyev Atamoğlan*

Göstərilənlər Atamoğlan Nuriyevin Ermənistan hərbçiləri tərəfindən əsir götürülməsi və onun sonrakı taleyi barədə məlumatların gizlədilməsi faktını təsdiq edir.

**Orucova Mina Əmiraslan qızı** – 1927-ci ildə

**Orucova Sona Əmiraslan qızı -** 1930-cu ildə Kəlbəcər rayonu, Qaracanlı kəndində anadan olmuşdur. Ermənistan silahlı birləşmələrinin rayonu işğalı zamanı yaşadıqları Qaracanlı kəndini tərk etməkdən imtina etmiş və evlərində qalmışlar.



Həmin dövrdə Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsinin əsgəri olmuş, Kəlbəcər rayonu, Zar kənd sakini, hazırda Mingəçevir şəhərində məskunlaşmış Abbasov Malik İdris oğlu ifadəsində bildirmişdir ki, həmin dövrdə onun xidmət etdiyi tağım Nizami Məhərrəmovun

komandanlığı altında Zəylik sərhəd postunda yerləşmişdir. Rayon ərazisinə güclü hücumun başlandığı barədə məlumat əldə etdikdən sonra onlar Kəlbəcər şəhərinə doğru irəliləmişlər. Bu vaxt o, yolüstü sakini olduğu Zar kəndinə daxil olaraq atası İdris və anası Əminə Abbasovaları özü ilə götürsə də babası Məmməd və nənəsi Şura Məmmədovlar onun və digər hərbçi yoldaşlarının təkidinə baxmayaraq, kəndlərini tərk etməmişlər və yaşadıqları evdə qalmışlar. Hərbçilərdən və mülki əhalidən ibarət dəstə qarda və çovğunda piyada Qaracanlı kəndinə çatmışlar. Həmin kəndin əhalisi kəndi tərk etsə də Mina **və Sona** adlı kimsəsiz bacılar da onlara qoşulub Qaracanlı kəndindən çıxmaqdan imtina etmişlər. Onların sonrakı taleyi barədə məlumatlar gizlədilmişdir.


Orucova Tubu

**Orucova Tubu Fərəc qızı -** 1918-ci ildə Kəlbəcər rayonunun Qaracanlı kəndində anadan olmuşdur. 31 mart 1993-cü ildə, Ermənistan silahlı qüvvələrinin Qaracanlı kəndinə hücumu zamanı itkin düşmüşdür.

Tubu Orucovanın oğlu – Hazırda Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsində məskunlaşmış Orucov Rövşən Azadxan oğlu Dövlət Komissiyasına verdiyi ifadədə bildirmişdir ki, 1993-cü il aprelin 2-də, Ermənistan silahlı birləşmələri yaşadıqları Kəlbəcər rayonu, Qaracanlı kəndini işğal edərkən o, anası Tubunu ata mindirib, yaşadıqları evdən 2 km. aralanmışdır. Bu zaman, anası: «Ermənilər mənə heç nə edə bilməz» - deyərək, oğlundan çox təkidlə onu öz evinə qaytarmağı xahiş etmişdir. Rövşən anasının sözündən çıxmamış, onu doğma kənddə öz evində qoyub, həmkəndlilərinə qoşularaq döyüş gedən ərazini tərk etmək məcburiyyətində qalmışdır. T.Orucovanın sonrakı taleyi barədə məlumat almaq mümkün olmamışdır.



Rəhimov Zülfü

**Rəhimov Zülfü Camal oğlu -** 1915-ci ildə Kəlbəcər rayonu, Ağqaya kəndində anadan olmuşdur. 1993-cü il mart ayının 27-də yaşadığı Kəlbəcər rayonu, Ağqaya kəndinin yaxınlığında itkin düşmüşdür.

Hazırda Tərtər şəhərində müvəqqəti məskunlaşmış Rəhimova Nəbat Çərkəz qızı Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına verdiyi ifadədə bildirmişdir ki, 1993-cü ilin mart ayının 27-də həyat yoldaşı oğlu, 1967-ci il təvəllüdlü İlham Rəhimovun idarə etdiyi «QAZ-52» markalı yük maşınında yaşadıqları Ağqaya kəndini Ermənistan silahlı birləşmələrinin aramsız hücumlarından müdafiə edən Azərbaycan Ordusuna sursat gətirərkən kəndin yaxınlığında pusquda durmuş erməni hərbçiləri tərəfindən atəşə tutulmuş və əsir götürülmüşlər. Hadisə zamanı Z.Rəhimovun qızının həyat yoldaşı, həmin kəndin sakini, 1970-ci il təvəllüdlü Hüseynov Dağıstan Balaca oğlu da onlarla birlikdə olmuşdur. Atışma səsini eşidib onlara tərəf qaçmış kənd sakini Kərimov Musa Mustafa oğlu isə ermənilər tərəfindən qətlə yetirilmişdir. Sonradan Musa Kərimovun meyidi ermənilər tərəfindən qaytarılsa da, digər üç nəfər barədə məlumat verilməmişdir.



**Rüstəmov Mahmud Kəlbəli oğlu** – 1891-ci ildə Ağdam rayonu, Qiyaslı kəndində anadan olmuş, Ağdam rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı - 1993-cü ilin iyul ayında itkin düşmüşdür.

Oğlu – hazırda Bakı şəhəri, Qaraçuxur qəsəbəsi, Zaur Şərifov küç., ev 5, mən. 37 ünvanda müvəqqəti məskunlaşmış Ağdam rayonu, Qiyaslı kənd sakini İspan Rüstəmov Dövlət Komissiyasına verdiyi ifadəsində bildirmişdir ki, yaşadıqları Ağdam rayonunun Qiyaslı kəndi 1993-cü ilin iyul ayında Ermənistan silahlı birləşmələri tərəfindən hücuma məruz qalmış və işğal edilmişdir. İşğal ərəfəsində o, digər ailə üzvlərini kənddən çıxarsa da atası təkidlə doğulduğu və ömrü boyu yaşadığı kəndi tərk etməyəcəyini bildirmiş və sağ-salamat evlərində qalmışdır. Sonrakı taleyi barədə məlumat almaq mümkün olmamışdır.

**Sadıqov Mübariz Yavər oğlu** - 1970-ci ildə Bakı şəhərində doğulmuş, 19 yanvar 1994-cü il tarixdə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndinin müdafiəsi zamanı itkin düşmüşdür.



Sadıqov Mübariz

Qardaşı- Sadıqov Azad Yavər oğlu Dövlət Komissiyasına verdiyi ifadədə Arif adlı döyüş yoldaşına istinadən döyüş zamanı Mübarizin və bir neçə əsgərin olduğu tankın minaya düşdüyünü, qardaşının erməni hərbçiləri tərəfindən əsir götürüldüyünü bildirmişdir.

Hadisənin digər şahidi - İbrahimov Kəmaləddin İbadəddin oğlu Dövlət Komissiyasına verdiyi ifadədə bildirmişdir ki, partlayış vaxtı tankın üstündə **Mübariz Sadıqovdan** başqa onun qardaşı Cəmaləddin İbrahimov, Elxan Nəbiyev, Akif Cabbarov, Əyyar Əliyev də olmuşdur. Daha bir neçə əsgər isə tankın arxasında getmiş «PDM» tipli zirehli maşında olmuşlar. Hadisə günü, o qardaşı Camaləddinin təkidi ilə onlarla birlikdə döyüşə getməmiş, arxa cinahda qalmışdır. 1994-cü il yanvarın 19-da axşamüstü saat 18 radələrində tankın minaya düşməsi xəbəri

alınmış və K.İbrahimov dərhal əsgər yoldaşları ilə birlikdə yaralıların xilas edilməsi işinə başlamış, oradan 10-12 yaralı əsgər çıxara bilmişlər. Döyüş yerində onlar tankın yandığını görmüş, lakin havanın qaralması səbəbindən ona yaxınlaşa bilməmişlər. Səhəri günü onlar erməni hərbçilərinin tankı apardıqlarını müşahidə etmişlər. Növbəti gün döyüş yerinə kəşfiyyat dəstəsi göndərilsə də, itkin əsgərlərin sonrakı taleyi barədə məlumat əldə etmək mümkün olmamışdır.

Yuxarıda qeyd olunanlar Sadıqov Mübariz Yavər oğlunun Ermənistan hərbçiləri tərəfindən əsir götürlməsini və beynəlxalq təşkilatlardan gizlədilməsini təsdiq edir.



**Şahverdiyeva Göyçək Rəcəb qızı -** 1905-ci ildə Kəlbəcər rayonu, Zar kəndində anadan olmuşdur. Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı 2 aprel 1993-cü il tarixdə itkin düşmüşdür.

Oğlu - hazırda Mingəçevir şəhərində məskunlaşmış Alxanov Hüseyn Məhəmməd oğlu ifadəsində bildirmişdir ki, 2 aprel 1993-cü il tarixdə yaşadıqları Zar kəndinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı onlar da digər kənd sakinləri ilə birlikdə evlərini tərk etməyə məcbur olmuşlar. Yaşlı olmasına baxmayaraq, anası Göycək onlarla birlikdə kəndi tərk etsə də, kəskin şaxta və qalın qarda rayonun Sarıdaş kəndinə qədər gəlmişdir. Sarıdaş kəndində onlar ermənilərin mühasirəsinə düşmüş və silahsız mülki əhali güclü atəşə məruz qalmışdır. Bu vaxt anası yaralanmış və qarlı-şaxtalı gecədə mühasirədən çıxa bilməmişdir. Oğlu onun ermənilər tərəfindən girov götürüldüyünü istisna etmir.



**Şahverdiyeva (Süleymanova) Sənəm Qurban qızı -** 1904-cü ildə Kəlbəcər rayonu, Zar kəndində anadan olmuşdur. Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı 2 aprel 1993-cü il tarixdə itkin düşmüşdür.

Oğlu – hazırda Yevlax rayonu, Meyvəli kəndində məskunlaşmış Şahverdiyev Süleyman Rəcəb oğlu ifadəsində bildirmişdir ki, 2 aprel 1993-cü il tarixdə yaşadıqları Zar kəndinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı zamanı onlar evlərini tərk etmək məcburiyyətində qalmışlar. Bu vaxt anası da digər ailə üzvləri ilə birlikdə evdən çıxmış kəskin şaxta və qalın qarda bir az yerisə də taqəti kəsilmiş və kəndin kənarında doğmalarından ayrı düşmüşdür. Doğmaları onun evlərinə qayıtdığına və girov götürüldüyünə əmindir. Sonrakı taleyi barədə məlumatlar ermənilər tərəfindən gizlədilmişdir.



**Səfərəliyeva Sümayə Həsən qızı -** 1927-ci ildə Laçın rayonu, Minkənd kəndində anadan olmuşdur. 1992-ci ildə Laçın rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Qohumu – hazırda Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal-1, ev 13, mənzil 55 ünvanda məskunlaşmış Nəcəfəliyev Səfərəli Allahverdi oğlu Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, 1992-ci il may ayının 16-da Laçın rayonunun işğalı zamanı o və qonşular əmisi qızı S.Səfərəliyevaya onlarla birlikdə kəndi tərk

etməyi təklif etsələr də, Sümayə: «Mən ata yurdumu atıb getmərəm» - deyərək kənddən çıxmamış, evində qalmışdır.

Kənd Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra və S.Səfərəliyevanın taleyi barədə məlumat olmamışdır.



**Şirinova Cahan İsmayıl qızı** - 1900-cü ildə Qubadlı rayonu, Çaytumas kəndində doğulmuşdur. 1993-cü ildə Qubadlı rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Nəvəsi - hazırda Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Asəf Zeynallı küçəsi-30, ev-1 ünvanda yaşayan Mehdiyeva (Şrinova) Nəzakət Vaqif qızı Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, 1993-cü ilin avqust ayında Qubadlı rayonuna Ermənistan silahlı qüvvələri daxil olarkən nənəsi Cahan Şirinova xəstə olduğu üçün kənddən çıxa bilməmiş, qohumu Xeyransa Şükürova ilə birlikdə yaşadığı evdə sağ-salamat qalmışdır. Sonradan onların taleyi barədə məlumat əldə edilməmişdir.



*Şirinova Zəhra*

**Şirinov Cəlal Məmməd oğlu** - 1916-cı ildə,

**Şirinova Zəhra İsa qızı** -1932-ci ildə Kəlbəcər rayonu, Zar kəndində doğulmuşlar. 1993-cü ildə Kəlbəcər rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşlər.

Övladları - hazırda Mingəçevir şəhərindəki 6 saylı orta məktəbin binasında məskunlaşmış Məmədov Yusif

Cəlal oğlu Dövlət Komissiyasına verdiyi izahatda bildirmişdir ki, 1993-cü il aprel ayının 2-də Kəlbəcər rayonu işğal olunan zaman ailəsi ilə bərabər Yevlax rayonunda olmuşdur. Rayonun işğalından sonra yaxın qohumlarından öyrənmişdir ki, atası - Şirinov Cəlal Məmməd oğlu və anası - Şirinova Zəhra İsa qızı: «Biz heç yerə getməyəcəyik» - deyərək kəndi tərk etməmiş, yaşadıqları evdə qalmışlar. Y.Məmmədov ata-anasını gətirmək üçün Murovdağ istiqamətində kəndə getmək istəmiş, lakin ərazi artıq Ermənistan hərbçiləri tərəfindən tutulduğu üçün Azərbaycan əsgərləri onu buraxmamışlar. Y.Məmmədov ata-anasının sonrakı taleyi barədə hec bir məlumat əldə edə bilməmişdir.



**Şükürova Xeyrənsə İsmayıl qızı** - 1914-cü ildə Qubadlı rayonu, Çaytumas kəndində doğulmuşdur. 1993-cü ildə Qubadlı rayonunun Ermənistan Respublikası silahlı birləşmələri tərəfindən işğalı zamanı itkin düşmüşdür.

Qohumu - hazırda Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Asəf Zeynallı küçəsi-30, ev-1 ünvanda yaşayan Mehdiyeva (Şrinova) Nəzakət Vaqif qızı Dövlət Komissiyasına verdiyi ifadədə bildirmişdir ki, 1993-cü ilin avqust ayında Qubadlı rayonuna Ermənistan silahlı qüvvələri daxil olarkən X.Şükürova qohumu Cahan Şirinova ilə birlikdə kənddə qalmışdır. Sonradan onların taleyi barədə məlumat əldə edilməmişdir.

**Tahirov Rəhim Əvəz oğlu** – 1961-ci ildə Ermənistan Respublikasının Gorus rayonunda anadan olmuşdur. 26.04.1994-cü il tarixdə Füzuli rayonu, Seyidəhmədli kəndi uğrunda gedən döyüşlər zamanı itkin düşmüşdür.

Qardaşı - Tahirov Ramiz Əvəz oğlu Dövlət Komissiyasına



Tahirov Rəhim

verdiyi ifadədə Rəhimin əslən Mingəçevirdən olan döyüş yoldaşları - Məmmədov Vidadi Musa oğlu, Alıyev Çingiz Həmid oğlu, Həşimov Elbrus Çərkəz oğlu, Hüseynov Adil Əlihüseyn oğlu və Qafarov Nəriman Qafar oğlu ilə birlikdə 26.04.1994-cü il tarixdə gedən döyüşlərdə itkin düşdüyünü bildirmişdir. İfadədə göstərilir ki, qardaşının sağ qalmış döyüş yoldaşları Həsən, Ələs və adını xatırlamadığı digər əsgərin sözlərinə görə, 1994-cü il aprelin 26-da Füzuli rayonunun Seyidəhmədli kəndində axşamüstü onların yerləşdiyi səngərə azərbaycan dilində danışan erməni hərbçiləri qəflətən hücum etmiş, və qeyri-bərabər döyüşdə Rəhim Tahirov və yoldaşları müxtəlif yerlərindən yaralı vəziyyətdə əsir götürmüşlər.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, əsir götürüldükdən sonra ağır işgəncələr nəticəsində qətlə yetirilmiş Çingiz Əliyev, Elbrus Həşimov, Adil Hüseynov və Nəriman Qafarovun meyitləri 25 may 1994-cü il tarixdə, yəni bir aydan sonra Azərbaycan tərəfinə qaytarılmış və doğulduqları rayonlarda dəfn edilmişlər.

Döyüş yoldaşları, Mingəçevir şəhər sakinləri- Heydərov Həsən Yəhya oğlu və Əliyev Yaqub Çərkəz oğlu ifadələrində 26.04.1994-cü il tarixdə Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşdə Rəhim Tahirov və digər döyüşçülərin Ermənistan hərbçiləri tərəfindən əsir götürüldüyünü təsdiq etmişlər.

Yuxarıda qeyd olunanlar və döyüş yoldaşlarının işgəncələrlə öldürülərək, bir ay sonra meyitlərinin Azərbaycan tərəfə qaytarılması barədə məlumatlar Tahirov Rəhim Əvəz oğlunun əsirlikdə saxlanmasını və beynəlxalq təşkilatlardan gizlədilməsini təsdiq edir.



Təhməzov Hidayət

**Təhməzov Hidayət Mehbalı oğlu** - 1956-cı ildə Laçın rayonunun Minkənd kəndində doğulmuş, 18.05.1992-ci il tarixdə Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı rayonun Sultanlar kəndi yaxınlığında gedən döyüşlərdə itkin düşmüşdür.

Atası - Təhməzov Mehbalı İsa oğlu və həyat yoldaşı - Təhməzova Müxək Yaqub qızı ifadələrində bildirmişlər ki, Hidayət qaynı - Bayramov Xosrov Yaqub oğlu və bir neçə digər həmyerlisi 18 may 1992-ci il tarixdə ev əşyalarını aparan yük maşınları ilə yol gedərkən, Laçın rayonunun Sultanlar kəndi yaxınlığında Ermənistan hərbçilərinin mühasirəsinə düşmüş və girov götürülmüşlər.

